# Qubad İbadoğlu ev dustaqlığına buraxıldı


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№15 (3306) 23 Aprel / 2024-cü il    Həftədə 1 dəfə çıxır    Qiyməti: 60 qəpik


ANA XƏBƏR



## Keçmiş bank sədri Vyanada vəfat etdi

# Regionda yeni münaqişə alovlandırılır

## İsrail İranla razılaşdırılmış "savaş"dan sonra üzünü Misirə çevirib...



3

GÜNÜN NƏBZİ

Müsahibə



### "Teatr Allah üçün olan bir sənətdir"

Mehriban Ələkbərzadə: "Teatra ancaq əyləncə vasitəsi kimi baxmaq lazım deyil"

5

Xəbər

### ADP hakimiyyətə çağırış etdi

Partiya hakimiyyəti suverenliyimizə zidd olan təzyiqlərə boyun əyməməyə çağırdı

2

Toplum

### Gəncə sakini DYP əməkdaşı tərəfindən döyüldüyün iddia edir

"Ətrafdakı polis əməkdaşlarına dedi ki, nəyə baxırsınız, gəlin tutun qoyun içəri"

11

Fakt

### Göyçay rəhbərliyi prezidentin sərəncamına "düzəliş edib"

Çərəkə kənd sakinləri rəsmi qurumlardan şikayətçidir

7

Toplum

### Göyçay sakini torpağının zəbt olunduğunu deyir

İlqar Zəkəriyev iddia edir ki, rəsmi qurumlar saxta rəy verdiyi üçün məhkəmə yanlış qərar çıxarıb

11

Xəbər

### Hüseyn Abdullayevin 6 illik həbs müddəti başa çatdı, amma



Vəkili Ceyhun Yusifov: "Bununla bağlı müvafiq hüquqi addımlar atılacaq"

2

MEDİA

### "Rəsmi Bakı COP29-a qədər sülh müqaviləsi bağlamaq istəyir"



Elxan Şahinoğlu: "Zəngəzur dəhlizi ilə bağlı danışıqları uzatmağın Ermənistan üçün faydası yoxdur"

8 - 9

Baxış

## Problemlərin kökü harda gizlənir?

Cəmiyyətimiz üçün önəmli, əhəmiyyəti olan bir sıra sahələrdəki fəlakətli vəziyyətlərin səbəblərini soraqlayaraq, bu vəziyyətdən israrla çıxış yollarını arayan İ.Sabirqızının bu fədakar fəaliyyətini ancaq təqdir edib, alqışlamaq olar. Öncə İ.Sabirqızının "Hürriyyət" qəzetinin 12.03.2024-cü il sayında bir çox sahələrdəki mövcud problemlər və onların aradan qaldırılması üçün həyata keçirilməli olan tədbirlər barədə, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının eksperti, "Konstitusiya" Araşdırmaları Fondunun prezidenti, Daxili İşlər Nazirliyi yanında İctimai şuranın sədri Əliməmməd Nuriyevlə geniş müsahibəsini əhatə edən, "Azərbaycanda təkrar cinayətkarlığın artması üçün münbit şərait var" adlı yazısında Ə.Nuriyev deyir; - Cinayətin təkrar törədilməsi o deməkdir ki, bunun üçün münbit şərait var...

12

Ölkə

## Qeyrətmənlərin Sizif əzabı

"Ölənin arxasınca danışmazlar". Bu axmaq "aforizmin" kimlər tərəfindən, nə üçün uydurulduğunu yaxşı bilirəm. Qərinələr boyu naqis, hər cür lənətə layiq elə şərəfsiz olmayıb ki, əməlləri bu sözlə ört-basdır edilməsin. Rəyasətə çatmış oğullar vəzifəsindən sui-istifadə edərək satqınlıqları ilə ad qazanmış ata-babalarını təmizə çıxarıblar. Çox vaxt buna nail də olublar. Danışmağa çoxlu cəsarəti çatmayıb. "Əşşi, olan olub, keçən keçib!", "Keçənə güzəşt deyərlər", "Zamana belə idi!","Günahsız insan tapmaq müşküldür!" və s. bu kimi sözlərlə o bəd əməl qalmayıb ki, ona bəraət qazandırmayaq...

6

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№15 (3306) 23 Aprel / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Azərbaycanda "TikTok" bağlana bilər?




**Qırğızıstan Milli Təhlükəsizlik Komitəsi respublika ərazisində ”TikTok” sosial şəbəkəsinə girişin məhdudlaşdırılması barədə qərar qəbul edib. Bundan əvvəl bir neçə ölkə adıçəkilən sosial şəbəkənin qapadılması ilə bağlı addımlar atıb.**

Son vaxtlar ölkəmizdə də ”TikTok”un bağlanması ilə bağlı fikirlər səsləndirilir. Buna səbəb kimi platformada uşaqların, yeniyetmələrin düşüncələrinə mənfi təsir edən videoların paylaşılmasıdır. Artıq bununla bağlı cəzalandırılan şəxslər də var. Belə ki, sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışlar edən şəxslərlə bağlı polis əməkdaşları tərəfindən qanunamüvafiq tədbirlər görülür.

Bəs görəsən, Azərbaycanda ”TikTok”un bağlanması gözlənilirmi?

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, deputat Tahir Kərimli bildirib ki, sosial şəbəkələr üzərində nəzarət gücləndirilməlidir. Onun sözlərinə görə, sosial şəbəkə ilə bağlı məsələni komitə və plenar iclasda qaldırır:

”Mənə deyirlər ki, sənin özünü ən çox ”TikTok”da paylaşırlar. Sən nəyə görə narazısan? Deyirəm ki, elə hörmət, şöhrət, təbliğat mənə lazım deyil. Ən çox narahat olduğum məsələ cəmiyyətin deqradasiyası, uşaqların tərbiyəsinin və ailə münasibətlərinin pozulmasıdır. ”TikTok” və digər sosial şəbəkələrdə həmişə yaxşı şeylər vermirlər. Qırğızıstan heç də varlı dövlət olmamasına baxmayaraq, məhdudiyyət qoymaq imkanlarını araşdırır. Biz ən azı ciddi məhdudlaşdırıcı senzura qurmalıyıq. Həmişə əxlaq, mənəvi senzura deyirəm. Artıq mənəviyyatımız əldən gedir. Azərbaycan kimi xalqların və dövlətlərin yeganə ən böyük dəyəri ailə institutunun möhkəmliyidir. Dövlət ali təşkilatdır, ailə isə kiçik təşkilatdır. Özək məhv olsa, hər şey məhv olacaq. Bu da gözümüz baxa-baxa məhv edilir. Eyni zamanda pislik arta-arta gedir. Azərbaycanda hökmən sosial şəbəkələr üzərində mənəvi senzura yaratmaq lazımdır. Bunun üçün dövlət də kifayət qədər vəsait ayırmalıdır”.

Ölkəmizdə ”TikTok”un fəaliyyətinin dayandırılması ilə bağlı məsələnin müzakirə olunub-olunmadığını dəqiqləşdirmək üçün Elektron Təhlükəsizlik Xidmətinə sorğu ünvanladıq.

”Bildirmək istərdik ki, hazırda sorğunuzda qeyd olunan məsələ müzakirə olunmur”, - deyə ETX-nin cavabında bildirilib.

## Bill Qeyts 27 illik həyat yoldaşından niyə ayrılıb?



**Dünyanın ən zəngin insanları siyahısında liderlik edən Bill Qeyts 27 illik həyat yoldaşı Melinda ilə 2021-ci ildə boşanıb. İddia olunurdu ki, ailənin dağılmasının başlıca səbəbi ”Microsoft” yaradıcısının xəyanəti olub. Qeyd olunurdu ki, iş adamı tabeliyində olanlardan bir qadın ilə görüşməyə başlayıb. Bundan sonra mətbuatda milyarderin mütəmadi olaraq striptiz klublarındakı qapalı məclisləri ziyarət etməsi, eləcə də Ceffri Epşteyn ilə dostluğunun təfərrüatları yer aldı.**

Əlbəttə, Qeytsin ”qadın düşkünü” olması ilə bağlı şayiələrin nə dərəcədə doğru olduğunu mühakimə edə bilmərik. Lakin o, yeni sevgisinin məxfiliyini kifayət qədər tez açdı.

İş adamı hazırda Paula Heardla sevgilidir. Cütlük ya tətildə, ya da tennis turnirlərində tez-tez birlikdə görüntülənir. Onlar Ceff Bezos və Lauren Sançezin nişanı şərəfinə təşkil olunan özəl ziyafətə də birlikdə təşrif buyurmuşdular. Ötən həftə isə məşhur cütlük ilk dəfə ”Breakthrough Prize” mərasiminin qırmızı xalı keçidində ictimaiyyət qarşısına çıxmağa qərar verdi.

Bəs dünyanın ən zəngin insanlarından birinin ürəyini fəth etməyi bacaran bu şanslı qadın kimdir?

Pola 60 yaşındadır. O, proqram təminatı şirkəti ”Oracle”ın baş direktoru və ”Hewlett-Packard”ın keçmiş icraçısı Mark Hurdla evli olub. Təəssüf ki, Mark 2019-cu ildə vəfat edib.

Paula özü İT sahəsində təhsil alıb və əvvəlcə öz ixtisası üzrə çalışıb. Görünür, Bill ilə məhz iş prosesində tanış olub. Ancaq son bir neçə ildir ki, o, yalnız xeyriyyə işləri ilə məşğul olur və şəxsi saytında yazıldığı kimi, ”şəxsi, korporativ və sosial sahədə unudulmaz tədbirlər təşkil edir”.

Mənbələrə görə, Bill və Paulanı ortaq maraqları bir-birinə yaxınlaşdırıb. Onların hər ikisi xeyriyyəçidir və hər ikisi tennis həvəskarıdır. Heardın iki yetkin qızı var. O, mərhum ərindən qalan böyük mirası onlarla bölüşür. Paulanın sərvəti, milyarderlərin standartlarına görə, kiçikdir - cəmi 4 milyon dollar.

*Əyləncə səhifəsi*

## Sərxoş sərnişin təyyarəni bir-birinə qatdı

**Şotlandiyanın paytaxtı Edinburqdan Antalyaya uçan və hava limanına enən təyyarədə sərxoş şotlandiyalı sərnişin səs-küy salmağa başlayıb.**




Müdaxilə etməyə gələn polis qrupları sərxoş sərnişinin hücumuna məruz qalıb.

Məlumata görə, aprelin 20-də təyyarədə şotlandiyalı sərxoş sərnişinin digər sərnişinlə mübahisə etməsi ilə bağlı polisə müraciət edilib.

Şotlandiyalı sərnişin təyyarəyə gələrək ona müdaxilə etməyə çalışan polisə hücum edib.

Digər polis əməkdaşı və sərnişinlər polis əməkdaşına yumruq atan aqressiv sərnişinin qarşısını almağa çalışıblar.

Qısa müddətdə zərərsizləşdirilən sərnişin polis tərəfindən saxlanılıb.

Polis bölməsindəki əməliyyatlardan sonra məhkəməyə sövq edilən şotlandiyalı sərnişin məhkəmə nəzarəti şərti ilə sərbəst buraxılıb.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# Hüseyn Abdullayevin 6 illik həbs müddəti başa çatdı, amma...

## Vəkili Ceyhun Yusifov: “Bununla bağlı müvafiq hüquqi addımlar atılacaq”

**Aprelin 22-də keçmiş deputat və sahibkar Hüseyn Abdullayevin 6 illik həbs müddəti başa çatdı. Lakin Hüseyn Abdullayev azadlığa buraxılmadı. Buna səbəb isə azadlığa buraxılmasına 47 gün qalmış ona qarşı cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılması (Cinayət Məcəlləsinin 193-1.3.2-ci maddəsi) ittihamı irəli sürülməsidir.**

Qeyd edək ki, 2024-cü il martın 4-də Binəqədi Rayon Məhkəməsi keçmiş deputat barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçib.

Vəkili Ceyhun Yusifov deyib ki, Hüseyn Abdullayev köhnə ittihamlar kimi yeni ittihamı da qəbul etmir. Onun sözlərinə görə, bununla bağlı müvafiq hüquqi addımlar atılacaq.

Yeni ittihama görə, Hüseyn Abdullayev 2006-2014-cü illər arasındakı dövrdə 6 milyon manat vəsaitin yuyulmasında ittiham olunur. Qeyd edək ki, əvvəlki cinayət işi üzrə istintaq artıq onun 2000-2018-ci ildəki fəaliyyətini araşdırıb. Bununla belə, yeni ittiham təsdiqlənərsə, Hüseyn Abdullayevi 7 ildən 12 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir. Yada salaq ki, Hüseyn Abdullayev 2005-ci ildə parlamentin deputatı kimi fəaliyyətə başlayıb və Nazirlər Kabinetinin fəaliyyətini tənqid edib. 2007-ci ilin martında parlamentin plenar iclasında deputat Fəzail Ağamalı ilə Hüseyn Abdullayev arasında yumruqlaşma olub. Bundan sonra Hüseyn Abdullayev cəzalandırılıb.

O, əvvəlcə həbs edilib, sonra xuliqanlığa görə 2 il müddətinə şərti azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. 2013-cü ildə Hüseyn Abdullayev Azərbaycandan gedib. Mühacirət dövründə ona qarşı vergi ittihamı ilə cinayət işi başlanıb. Keçmiş deputat 2018-ci il aprelin 22-də Türkiyədə saxlanılıb və Azərbaycana ekstradisiya olunmuşdu.

Hüseyn Abdullayayev Bakıda Cinayət Məcəlləsinin 192.2.2 (böyük gəlir əldə etməklə qanunsuz sahibkarlıq), 178.2.1, 178.2.2, 178.2.4 (fırıldaqçılıq), 182.2.1 (əvvəlcədən əlbir olmuş şəxslər tərəfindən hədələmə yolu ilə pul tələb etmə), 182.2.2 (eyni əməllər təkrar törədildikdə) və 182.2.4-cü (eyni əməllər, zərərçəkmişə böyük ziyan vurmaqla törədildikdə) maddələri ilə ittiham edilərək 6 il müddətinə azadlıqdan məhrum edilmişdi.

# Qubad İbadoğlu ev dustaqlığına buraxıldı



Qubad İbadoğlu ev dustaqlığına buraxılıb.

Bu barədə Nərimanov Rayon Məhkəməsində hakim Hafiz Kamranovun sədrliyi ilə keçirilən iclasda qərar qəbul edilib. Qeyd edək ki, Qubad İbadoğlu ötən ilin iyul ayında həbs edilib. O, ilk olaraq Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə onun barəsində 3 ay 26 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

Daha sonra ona qarşı Cinayət Məcəlləsinin 167-3.1-ci (dini ekstremist materialları hazırlama, saxlama və ya yayma) maddəsi ilə yeni ittiham irəli sürülüb.

# ADP hakimiyyətə çağırış etdi

## Partiya hakimiyyəti suverenliyimizə zidd olan təzyiqlərə boyun əyməməyə çağırdı

## “Rusiya “sülhməramlıları”nın çıxarılması Azərbaycanın suverenliyinin bərpası istiqamətində atılmış mühüm addımdır”

**ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən “Hürriyyət”ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə Rusiya hərbi kontigentinin ölkəmizdən çıxarılması məsələsinə münasibət bildiriblər. Qeyd edilib ki, “sülhməramlı” adı altında Qarabağa yerləşdirilmiş hərbi qüvvənin çıxarılmağa başlanması Azərbaycanın suverenliyinin bərpası istiqamətində atılmış mühüm addımdır. Sadəcə olaraq çıxarılma prosesinin altı ayadək uzadılmasının anlaşılmaz olduğunu və qoşunların gecikdirilmədən, dərhal çıxarılmasının vacibliyi qeyd edilib. ADP yetkililəri rus qoşununun Azərbaycandan çıxarılması müqabilində ölkəmizə digər siyasi və hərbi boyunduruğa cəlb edilməsi cəhdlərinin qətiyyən yolverilməz olduğunu bildirib və hakimiyyəti suverenliyimizə zidd olan hər hansı təzyiqə boyun əyməməyə çağırıb.**

ADP İH üzvləri eyni zamanda Xəzər dənizində Rusiya hərbi gücünün artırılması ilə bağlı qərardan ciddi şəkildə narahat olduqlarını bildiriblər. İclasda qeyd edilib ki, Xəzərdə hərbi gücün artırılması beynəlxalq hüquqa və regional təhlükəsizliyə real təhdiddir.

ADP İH Qazax rayonu üzrə sərhədlərin müəyyənləşməsi ilə bağlı Azərbaycan və Ermənistanın səlahiyyətli komissiyasının imzaladağı razılaşmanı alqışlayıb. İclasda iki ölkənin vasitəçilərsiz ilk razılaşması kimi bu görüşün konstruktivliyi və məhsuldarlığı bir daha vurğulanıb, sülh danışıqlarını bu formatda və sürətlə həyata keçirilməsinin hər iki ölkə üçün əhəmiyyəti qeyd edilib.

ADP İH üzvləri Fransa ilə Azərbaycan arasındakı diplomatik qarşıdurmanın getdikcə artmasından ciddi narahat olduqlarını bildiriblər. Qeyd edilib ki, yaranmış vəziyyətin əsas səbəbi Fransa hakimiyyətinin beynəlxalq hüquqa zidd bəyanatları və regionda münaqişəni yenidən alovlandırmağa yönəlik addımları olsa da, bu problemin daha da dərinləşməməsi üçün cəhdlər edilməli və münasibətlər ən qısa müddətə normal məcraya salınmalıdır.

Avropa Parlamentində yaxın zamanda gözlənilən Azərbaycanda siyasi məhbus məsələsinə dair müzakirələrlə bağlı məsələyə toxunan İH üzvləri, bu cür müzakirələrin artmasını siyasi məhbus probleminin ölkəmiz üçün ciddi beynəlxalq ittiham mərhələsinə daxil olmasının əlaməti kimi qiymətləndirib. Bunun da əsas səbəbi kimi hakimiyyətin siyasi partiyalar, yerli və beynəlxalq hüquq müdafiəçilərinin bu barədəki narahatlıqlarının vaxtında düzgün dəyərləndirməməsi, hakimiyyəti tənqid edən insanlara və mediyaya qarşı intiqam hisslərinin durmadan artması göstərilib. ADP İH bir daha hakimiyyəti Azərbaycanı onsuz da çətin olan beynəlxalq münasibətlər sistemində lüzumsuz mübahisə və müzakirələrə obyekt etməməyə, ölkədə siyasi məhbus problemini birdəfələik həll etməyə, günahsız həbs edilmiş bütün vətəndaşlarımızı həbsdən azad etməyə çağırıb.

ADP İH-də bu günlərdə AXCP-nin mitinqlə bağlı müraciətinə Bakı şəhər rəhbərliyinin rədd cavabı verməsi qətiyyətlə pislənilib. Qeyd olunub ki, vətəndaşların əsas konstitusion hüququ olan toplaşma azadlığını heç bir hakimiyyət qurumu ciddi əsaslar olmadan məhdudlaşdıra və ya qadağan edə bilməz. Eyni zamanda qeyd edilib ki, mitinqlərin elan olunub, sonra da təxirə salınması təcrübəsi vətəndaşların bu hüququnun gözdən salınmasına, bir siyasi alət olaraq nəzərdən düşməsinə səbəb ola bilər. Ona görə də 23 il əvvəl məhz 21 aprel tarixi ilə ADP-nin hakimiyyətin uzun müddətli mitinq qadağalarını yaran razılaşdırılmamış aksiyasını bir təcrübə kimi nəzərə alınmasının vacibliyi qeyd edilib. Qeyd edilib ki, mitinq xatirinə mitinq keçirmək taktikası yanlışdır. Əgər zərurət varsa hakimiyyətin qadağalarına baxmayaraq mitinq keçirilməli, ciddi zərurət yoxdursa və ya hazırlıq kifayət səviyyədə deyilsə mitinq elan edilməməlidir.

Avropa Şurasından Azərbaycanın nümayəndə heyətinin geri qayıtması zərurəti ilə bağlı AŞPA-nın bir çox deputatlarının çağırışları yüksək dəyərləndirilib, nümayəndə heyətimizin bu quruma qayıtmasının zəruriliyi bir daha vurğulanıb və qeyd olunub ki, Azərbaycan milli maraqlarımıza uyğun olan bütün beynəlxalq platformalarda işini düzgün qurmalı və fəal iştirak etməlidir.

ADP İH Gürcüstanda xarici agentlər haqqında qanun qəbuluna qarşı keçirilən vətəndaş etirazlarını yüksək qiymətləndirib. Bu cür qanunun ilk olaraq Rusiyada qəbul edilməsi də onu göstərir ki, bu qanunun qəbulu ilə Gürcüstanla demokratik dünya arasındakı əlaqələri qadağan etmək niyyəti güdülür. Həmçinin keçmiş postsovet məkanında olmuş bütün ölkələrdə, o cümlədən Azərbaycanda da rusiyapərəstlər bu cür addımlar ata bilərlər ki, Gürcüstanda bunun qarşısının kəsilməsi bizim də milli maraqlarımıza uyğundur.

**Hazırladı: KƏNAN**

# Keçmiş bank sədri Vyanada vəfat etdi

**Keçmiş bank sədri Fərid Əlizadə Vyanada dünyasını dəyişib. Fərid Əlizadə müalicə aldığı klinikada ürək problemindən vəfat edib. Yaxın günlərdə mərhumun cənazəsinin dəfn olunmaq üçün Azərbaycana gətiriləcəyi bildirilib.**



Qeyd edək ki, F.Əlizadə Rutgers Universitetini və ABŞ-nin Rays Universitetində magistr dərəcəsini bitirdikdən sonra ölkənin aparıcı banklarında çalışıb.

O, uzun müddət “Bank of Baku”nun İdarə Heyətinin sədri və baş direktoru, AFB bankın Müşahidə Şurasının üzvü olub.

Qeyd edək ki, hadisə barədə ilk məlumatı Banker.az saytı yayıb.

İran-İsrail siyasi tamaşası şübhə doğuran kifayət qədər nüansların varlığına baxmayaraq, davam edir. Tərəflərin bir-birinə endirdikləri raket zərbələri real dağıntılara səbəb olmur və hər şeyin "ölçülüb-biçilmiş" hərbi əməliyyat olduğu təəssüratını yaradır. Hər iki tərəf əndazəni aşmamaq şərti ilə "düşmənçilik təlqini"ni dünyaya sırısalar da, bu qurama düşmənçilik oyunundan düyüq düşənlər də var. Həm də bu dünya miqyasında tanınmış ekspertlərin dilindən səsləndirlir.

# Regionda yeni münaqişə alovlandırılır



## İsrail İranla razılaşdırılmış "savaş"dan sonra üzünü Misirə çevirib...

Məsələn, bu qəbildən olan iddia dünən aşağıdakı formada dilə gətirildi: "İran və İsrail yəhudi dövlətinin cavab hücumunun miqyası ilə bağlı gizli razılığa gəliblər". Bu fikri Münhen Universitetinin hərbi eksperti Karlo Masala səsləndirdi. Ekspert İsrail və İranın cavab hücumunun miqyası ilə bağlı razılaşma əldə etməsi ehtimalını istisna etmir. Onun sözlərinə görə, bu razılaşmanın bir hissəsi olaraq iranlılar "qeyri-rəsmi olaraq çox kiçik, yığcam zərbə barəsində razılığa gəliblər" və "eskalasiyaya getməyəcəklərinə" söz veriblər.

Amma İran-İsrail oyunu yalnız bununla məhdudlaşmır. Dünya gündəmində paylaşılan başqa xəbərlər də maraqlı məqamları üzə çıxarır. Birinci məqam budur ki, ABŞ Konqresi maliyyə tranşlarının ayrılması üçün 4 qanun layihəsini təsdiqləyib - Ukraynaya 61 milyard dollar, İsrailə 17 milyard, Tayvana 8 milyard ayrılıb. Daha 9 milyard isə Qəzzada limanın tikintisinə və fələstinlilərə humanitar yardımın çatdırılmasına xərclənəcək. Burada deyirlər ki, "xoruzun quyruğu göründü".

İsrail tərəfi Misirə qarşı ərazi iddiası irəli sürərək, daha bir gülüş doğuran iddia ortaya atıb. Məsələ bundan ibarətdir ki, İsrail Sinay yarımadasını Misirin əlindən alacağı barədə hədə-qorxu gəlib. Səbəb isə odur ki, Musa peyğəmbər bu coğrafiyaya qədəm basıb və onu "mübarək" ayağı bu torpağa dəyib.

Bundan əvvəl İsrailin Qəzza sakinlərini Sinay yarımadasına köçürməsi təklifi ilə Misirə üz tutduğu, Qahirənin isə buna isti yanaşmadığı xəbəri paylaşılmışdı. Belə görünür ki, Misir həm İsrailin Rəfah bölgəsinə hücumla ələ keçirmək istədiyi Filadelfiya dəhlizini "uduzmaq" təklifinə razı deyil, həmçinin qəzzalıları Sinay yarımadasına qovmaq təklifinə də müsbət cavab almadığından Tel-Əviv bu ərazini Misirin əlindən alacağı ilə təhdid edir. Məqsəd isə ABŞ-ın Çinin İpək Yoluna alternativ kimi irəli sürdüyü Hindistandan başlayan Baharat Yolunun əsas nöqtələrindən biri olan Qəzzanı tam nəzarət altına almaqdır. Çünki ABŞ Konqresinin Qəzzada liman tikintisinə 9 milyard dollar vəsait ayırmasını başqa cür izah etmək məntiqsiz olardı.

İkinci məqam - "Bloomberg" təkidlə iddia edir ki, Yaxın Şərqdəki qeyri-sabitlik qlobal logistikanı Rusiya Federasiyasının xeyrinə dəyişə bilər. Amma necə? Yaxın Şərqdə qeyri-sabitliyi görmək üçün 3D eynəyinə ehtiyac yoxdur. Və bu gərginliyi pik həddə çatdıran əsas fiqur Israildir. Bəs Yaxın Şərqdəki qeyri-sabitlik qlobal logistikanı Rusiyanın xeyrinə necə və niyə dəyişə bilər? Əsas cavablandırılmalı sual budur? Bəs Süveyş kanalının Husi hücumuna uğramasının, İsrailin Qəzzaya, ardınca İrana "qurama hücumu"nun, Livana, İraqa, Suriyaya son zərbələrinin altında nə kimi məqamlar yatır?

Əslində, İranın Hindistandan başlayaraq öz ərazisinə, oradan Ermənistana, Gürcüstana, Qara dənizlə Avropaya keçirmək istədiyi marşrut elə Baharat Yolu layihəsinin müasir versiyasıdır ki, Tehran bu istiqamətdə israrlıdır. Əlbəttə, Fransanın Odessa limanını ələ keçirmək istəməsi də də İran-Fransa tandeminin Baharat Yolunun müasir versiyasında hakim mövqe tutmaq istəməsi ilə bağlıdır. ABŞ-ın İsraillə birgə planladığı Qəzza əməliyyatının da arxa planı Baharat Yolu layihəsinin öz istədiyi versiyasını reallaşdırmağa xidmət edir. Baharat Yolunun ABŞ versiyasının bir xətti (İMEC) Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi Bombeydən başlayaraq BƏƏ, Səudiyyə Ərəbistanı və İordaniyadan keçərək İsrailin Hayfa limanına, digər xətti isə Cənubi Kipr Rum Respublikasından keçərək Yunanıstanın Pire limanına, oradan da Almaniyanın Hamburq limanına çatır. Bu versiyada Misir əsas halqalarından olduğu Baharat Yolunun ənənəvi marşrutundan kənarda qalır. Təbii ki, Süveyş kanalı da oyundan kənar vəziyyətə düşür.

Beləliklə, aydın olur ki, husilər niyə Qırmızı dənizdə quldurluq edirlər. Eləcə də İsrailin İraqla Suriyaya son endirdiyi zərbələrin də sirri açığa çıxır. Burada da İsrailin İrana etdiyi "jest"in pərdəarxası məlum olur. Çünki İraqla Suriya parçalanmış vəziyyətdə olsa da, bu durum hələ rəsmiləşməyib.

Burada bir haşiyə çıxaraq qeyd edə bilərik ki, İraqla Suriyanın parçalanmasının rəsmiləşməsində İŞİD-dən istifadə ediləcək. Məsələn, "Al Monitor" nəşri, "İŞİD Suriyada canlanma üçün Iran-Israil qarşıdurmasından istifadə edir" başlıqlı yazısında bu nüansa toxunub. Nəşr yazır ki, regionda artan qeyri-sabitlikdən və İran və İsrail arasında görünməmiş "hərbi qarşıdurma"dan istifadə edən İŞİD tədricən "vur-qaç" taktikasından istifadə edir. Qeyd olunur ki, qüvvələrin yerdəyişməsi, Suriya Demokratik Qüvvələri (SDQ) ilə Suriya ordusu arasında koordinasiyanın olmaması fonunda İŞİD Rakka ilə Deyr əz-Zoru ayıran həyati əhəmiyyətli magistralın bir hissəsini ələ keçirə bilib.

"Bütün cəbhələrdə daha dolğun səylər göstərilmədikcə, bu hücumların Suriyanın şərqindəki bəzi bölgələrdə suriyalı və kürd istehkamlarının və mövqelərinin qəfil dağıdılmasına gətirib çıxara biləcəyi ehtimalı var... İŞİD Mosulu ələ keçirmək ssenarisinə stavka edir və İranın Dəməşqdəki konsulluğuna hücumdan sonra mövcud gərginlik qruplaşmanın yararlana biləcəyi boşluq yaradır", - deyə məqalədə qeyd edilir. Görünür ki, "xorladılmış" İŞİD-ə həm Yaxın Şərqdə, həm də Mərkəzi Asiyada mühüm missiya həvalə ediləcək.

Ümumiyyətlə, dünya KİV-lərinin gündəmində "İŞİD qüvvələrinin yarısını Tacikistandan toplayır" başlıqlı yazılar dolaşmaqdadır. Bu barədə "Nyu York Times"da material paylaşılıb. "NYT" analitikləri deyirlər ki, müxtəlif problemlər tacikləri İŞİD kimi terror qruplaşmalarına cəlb olunmağa itir, onlardan biri də yoxsulluqdur.

Tacikistanın yeni nəsli gələcəyə inamını tamamilə itirib. Yalnız iki variant var: dünyəvi diktatura və İŞİD. Ya da digər radikal İslam qruplarının mövcudluğu. Ekspertlər deyirlər ki, ekstremizm üçün vahid resept və ya düstur yoxdur, lakin bəzi gənc tacik mühacirləri üçün şəxsi narazılıqlar geosiyasi mülahizələrdən üstündür.

Qayıdaq İraqla Suriyanın parçalanmasına. Parçalanmanın rəsmiləşəcəyi variantda isə İraqla Suriya orada onsuz da güclü olan İranın nüfuz dairəsinə keçəcək ki, bu da bölgəni Türkiyənin ixtiyarına buraxmaq istəməyən ABŞ-la İsrailin işinə yarayır. Göründüyü kimi, Yaxın Şərqdə qeyir-sabitliyin Vaşqintonun ciddi-cəhdləri ilə alovlanırmış kimi təəssüratı yaranır. ABŞ-İsrail-İran üçlüyünün İraqla Suriyada planladığı məkrli parçalanma və oranı Tehranın nüfuz dairəsinə salmaq planını "zibil yeşiyinə atmaq" məqsədilə Prezident Ərdoğan 22 aprel tarixində "nağıllar şəhəri" olan əsrarəngiz Bağdada səfər edib.

Ərdoğanın İraq səfərinin pərdəarxası

Fars körfəzinin hinterlandını Türkiyə üzərindən Avropaya açacaq "İnkişaf Yolu Layihəsi"nin prezident Ərdoğanın 11 illik fasilədən Bağdad və Ərbilə səfəri zamanı mühüm gündəm mövzularından biri olacağı gözlənilir. İraqın cənubundakı Bəsrə şəhərində yerləşən və Yaxın Şərqin ən böyük limanı olması nəzərdə tutulan və 2025-ci ildə tamamlanması planlaşdırılan Böyük Fav Limanının tikintisi tam sürətlə davam edir.

Limandan başlayaraq Divaniyə, Nəcəf, Kərbəla, Bağdad və Mosuldan keçərək Türkiyə sərhədinə qədər uzanan dəmir yolu və avtomobil xətlərini əhatə edən layihənin Türkiyə sərhədindən Mersin Limanına çıxışı və İstanbul vasitəsilə Avropaya çatması nəzərdə tutulur. Ekspertlər, Böyük Fav Limanını 1200 kilometr dəmir yolu və avtomobil yolları ilə Türkiyə sərhədinə birləşdirəcək layihənin regional ticarət baxımından yeni imkanlar təmin edəcəyini düşünürlər.

Avropa Xarici Əlaqələr Şurasının (ECFR) tədqiqatçısı Hamzeh Haddad, layihə vasitəsilə Asiya ilə Avropa arasında səyahət müddətini qısaltmağı və tranzit mərkəzə çevrilməyi hədəfləyən Türkiyə və İraqın ciddi fayda əldə edəcəyinə diqqət çəkərək, "Layihə hər iki ölkəyə ciddi fayda verəcək, buna şübhə yoxdur. Şübhə yoxdur ki, İraq layihənin həyata keçirilməsi üçün intensiv səylər göstərir və Türkiyə də ona dəstək verir, bu da qarşılıqlı maraqların olması mənasına gəlir", deyə bildirib.

Belə fikir var ki, "İnkişaf Yolu Layihəsi" Süveyş Kanalı və 2023-cü ilin sentyabrında G20 Zirvə toplantısında qərara alınan, Hindistanı Yaxın Şərq vasitəsilə Avropaya birləşdirəcək "Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizi" (IMEC) başqa sözlə Yeni Baharat Yolu layihəsinə alternativ olacaq. ABŞ və Avropa İttifaqının (AB) dəstəyi ilə elan edilən "IMEC" layihəsinin İraq və Türkiyədən yan keçərək yeni marşrut təklif etməsi diqqəti çəksə də, Həddad, "Türkiyə G20-də IMEC-dən kənarda qaldıqdan sonra İnkişaf Yolu Layihəsi üçün daha çox səy göstərdi. Qeyd etmək lazımdır ki, bu vəziyyət Türkiyənin İnkişaf Yolu Layihəsindən IMEC-dən daha çox faydalanacağı faktını daha da gücləndirir", deyə açıqlayıb.

Digər tərəfdən, Ankara ilə Bağdadın mühüm ticarət tərəfdaşları olduğuna diqqət çəkən Həddad, İraq daxilində PKK-ya qarşı davam edən hərbi əməliyyatlar səbəbindən İraqla Türkiyə arasındakı iqtisadi əlaqələrin bütün siyasətə necə təsir edəcəyini proqnozlaşdırmağın hələ də çətin olduğunu vurğulayıb.

Türkiyə ilə İraq arasındakı ticarət həcminin 24 milyard dolları keçdiyini nəzərə alsaq, İnkişaf Yolu Layihəsinin təklif etdiyi potensial biznes mühitinə ümid verməklə yanaşı, layihənin tərəfdaş ölkələri də bundan ciddi iqtisadi faydalar görəcək.

İraqlı siyasi ekspert Əhməd əl-Yasiri, Türkiyənin Asiya və Avropa arasındakı coğrafi mövqeyinin İnkişaf Yolu Layihəsi ilə gücləndiriləcəyinə diqqət çəkərək, "İraq Türkiyə üçün körfəzə açılan qapıdır. İki ölkə arasında ticarət əlaqəsi artıq problemli deyil, təhlükəsizlik məsələlərinə görə İraq bütün Körfəzə açılan qapıdır", - deyib.

Türkiyənin İraqla ortaqlığını genişləndirərək ticarət həcmini artırmaq və ticarət əlaqələrini şaxələndirmək istədiyinə diqqət çəkən Yasiri layihənin Türkiyənin İraqla yanaşı Körfəz və Misirlə əlaqələrinə də müsbət təsir edəcəyini bildirib. "İnkişaf Yolu Layihəsi"nin iqtisadi, geosiyasi və kommersiya baxımından Ankara və Bağdada fayda verəcəyini vurğulayan Yasiri, "Türkiyə də bu layihə ilə geosiyasi mövqeyini gücləndirəcək. İraq Türkiyəyə daha yaxın olacaq", - deyib.

"İnkişaf Yolu Layihəsi"nin Süveyş kanalından keçən dəniz yolu ilə müqayisədə Çin və Avropa arasındakı məsafəni qısaltmaqla vaxt və xərclərə qənaət edəcəyi gözlənilir. Avtomobil yolları, dəmir yolları, enerji nəqli və kommunikasiya xətlərini əhatə edən layihə Avropadan Körfəz ölkələrinə qədər geniş bir bölgəni əhatə edəcək. Layihə ilə neft və qaz nəqlinin asanlaşacağı gözlənilir.

İraq enerji mütəxəssisi Həmzə Cəvahiri Türkiyənin İraqın "İnkişaf Yolu Layihəsi"ndə ilk ortağı olduğunu və aslan paya sahib olduğunu bildirib. Türkiyənin sözügedən layihə çərçivəsində quru və dəmir yollarının marşrutu və gələcəkdə təbii qaz borularının marşrutu olduğuna diqqət çəkən Cəvahiri, İraqın bu mənada neft daşımalarında Türkiyəyə ehtiyacı olduğunu qeyd edib.

*(Ardı səh. 10-da)*




# Aylarla balıq gölündə çalışdı, maaşını ala bilmədi



**Abşeron rayonu, Saray qəsəbəsi, ”Təzə məhəllə” sakini Rzayev Əli Hüseyn oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Baş prokuror Kamran Əliyevə müraciət edir:**

”Hörmətli Baş prokuror!

Yazıb sizə bildirirəm ki, mən 12 aprel 2018-ci il tarixdən 2019-cu il fevral ayının 18-ə kimi Sabirabad rayonunun Qaraqaşlı kəndində fermer iş adamı Mirzəyev Sahib Tapdıq oğlunun idarə etdiyi balıq gölündə müqavilə ilə (ayda 400 manata) işləmişəm. Əmək haqqım yetişdirdiyimiz balıqlar böyüyüb satılandan sonra ödənilməliydi. Lakin balıq məhsulu satılıb qurtarandan sonra Mirzəyev Sahib mənə çatası 400 manat pulu vermək istəmir. Məni təhqir edir, “get hara istəyirsən şikayət et” deyərək, mənə ödəniləsi olan əmək haqqımdan boyun qaçırır.

**Cənab Prokuror!**

Xahiş edirəm mənə kömək edin, müvafiq qurumlara tapşırıq verin.

Qeyd edim ki, Sabirabad rayon Polis şöbəsi şikayətimə baxmadı. Polis biz vətəndaşların yanında olmalı, saxtakar insanları müdafiə etməməlidir”.

Məsələ ilə bağlı Mirzəyev Sahib Tapdıq oğlunun mobil nömrələri ilə əlaqə saxladıq. Telefonu açan şəxs nömrələrin Sahib adlı şəxsə aid olmadığını bildirdi. Şikayətçi isə deyir ki, nömrələr Sahibə məxsus olsa da, özünü gizlədir.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# "Həkim dedi ki, narazılığın var, get sən də özünü yandır..."

## 44 günlük savaşada sürücü olaraq xidmət göstərən şəxsdən rəsmi qurumlara müraciət




**Qazax rayon sakini Cəfərov Arif Zakir oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Sürücü kimi 44 günlük müharibədə iştirak etdiyini bildirən şikayətçi deyir ki, nazirlikdən onun xəstəliyinə laqeyd yanaşırlar:**

“Mən, Cəfərov Arif Zakir oğlu, yazaraq bildirirəm ki, Aprel döyüşlərində və 44 günlük müharibədə ”maxe” sürücü kimi zəfərin iştirakçısı olmuşam. Qələbədən 8 ay sonra tərxis edilmişəm. Müharibədən sonra səhhətimdə ciddi problemlər ortaya çıxdı, hətta qaraciyər serrozu diaqnozu qoyuldu. Səhhətim kəskin ağırlaşmışdı.

Vətənimiz üçün 2 əsgər övladı böyüdürəm. Rəsmi və qeyri-rəsmi gəlirim yoxdur. Oğlum zibil tullantılarından dəmir yığıb satmaqla məşğuldur. Evə tək gəlir gətirən odur. Bir reseptim 800 AZN tutur, sosial yardım olaraq isə 220 AZN verilir. Amma tanıdığım şəxslər var ki, hərbi xəstəliklə 420 AZN alırlar. İmkansızlığın ucbatından qaraciyər serrozu xəstəliyindən ciyər çatışmazlığına gəlib çatmışam.

Mart ayının 6-da Əlillərin Bərpa Mərkəzində olmuşam. Hərbçiləri qəbul edən həkim mənə kobudcasına bildirdi ki, sənə 2-ci dərəcəli əlillik verməyəcəyik, narazılığın var, get sən də özünü yandır.

Mənə 2 illik sosial pensiya veriblər. Bəzi məmurlar o qədər harınlayıb ki, heç ”prezidentin qəbuluna gedəcəm” sözünü də veclərinə almırlar.

Xəstəliyimi bilib, ölümümü gözləyən adamam. Mən bu halımda dövlətimdən haqqımı ala bilmirəm. Bir tək ümidim Allahadır. O dünyada Allaha şikayət edəcəm. 2021-ci ildən pensiya üçün müraciət etdiyim halda, imtina verirdilər. Halbuki, səhhətim göz qabağındadır.

Sizdən xahişim odur ki, mənim vəziyyətimi ictimailəşdirin, bəlkə yuxarıda oturan vəzivəli şəxslər xəcalət çəkə”.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların mövqeyini dərc etməyə hazırıq.**

# “Bakı Mətbuat Yayımı”nın rəhbəri kibercinayətkarlıqla üzləşib

## Cavid Rzayev: ““RabitəBank” hesabdan bloku götürdüyü üçün 7 500 manat pul çıxarılıb, üstəlik, 150 manat da bank xərci tutulub”






**“Bakı Mətbuat Yayımı” firmasının təsisçisi və direktoru Cavid Azər oğlu Rzayev kibercinayətkarlıqla üzləşib və bu məsələdə “RabitəBank”ın məsuliyyət daşıdığını bildirir. Bu haqda “Hürriyyət”ə açıqlama verən Cavid Rzayev deyir ki, sözügedən bank hüquqi şəxslərin VÖEN hesabının təhlükəsizliyini təmin edə bilmir. Üstəlik, müştərini də günahlandırır ki, debet kartla daxil olduqları üçün vəsait oğurlanıb.**

“Mən “Bakı Mətbuat Yayımı”nın təsisçisi və direktoruyam. Lakin fiziki şəxs VÖEN-i ilə fəaliyyət göstərirəm. Bu VÖEN-lə Bakı şəhəri üzrə qəzet və jurnalların satışını təmin edirəm. Mənim “RabitəBank”da şəxsi debet kartım və VÖEN hesabım var. VÖEN hesabımla qanun çərçivəsində limitə uyğun olaraq köçürmələr edir və pul nağdlaşdırıram”, - deyən C.Rzayevin sözlərinə görə, aprelin 11-də “Facebook” şəbəkəsi üzərindən debet kartla “RabitəBank”ın səhifəsinə daxil olub. Lakin sonradan məlum olub ki, səhifə saxta imiş: “Məndən məlumatlar istənildi, kartımın şifrəsi tələb olundu. Bunları etdikdən sonra nömrəmə kod gəldi və təsdiqlədim. Daha sonra heç bir şey olmadığını görüb çıxdım. Sabahısı gün sistemə daxil olmaq istədikdə, mobil rabitənin bloklandığını gördüm. Məsələni aydınlaşdırmaq üçün mühasiblə əlaqə saxladım. Məlum oldu ki, debet kart hesabımdan 400 manat, VÖEN-ə bağlı hesabımdan isə 7 500 manat pul çıxarılıb. Üstəlik, 150 manat bank xərci tutulub”.

Firma rəhbəri bildirir ki, həmin vaxt qeyri-iş günü olduğundan, dərhal Daxili İşlər Nazirliyinin 102 “Qaynar xətti” ilə əlaqə saxlayıb və şikayətini bildirib: “Polislər məsələni araşdırmağa başladılar. İş günündə isə banka yaxınlaşdım. Mənə dedilər ki, kartın məlumatlarını ötürdüyüm üçün hesabımdan vəsait oğurlanıb. Mən bu məsələdə günahkar olduğumu, çıxarılan 400 manat vəsaiti geri istəmədiyimi bildirdim. Amma mənim əsas tələbim VÖEN-ə bağlı hesabımdan çıxarılan 7 500 manatdır. Hansı ki, buna görə mənimlə əlaqə saxlanılmayıb. Soruşulmayıb ki, bu vəsaitin köçürülməsindən xəbərin var, ya yox.

İkincisi, bu hesablarda blok olur ki, vəsait kartdan-karta köçürülməsin. Bəs, bu, necə baş verib? Bu suala cavab olaraq bildirdilər ki, blok cari ilin yanvar ayından götürülüb. Maraqlıdır, indi kibercinayətkarlığın artdığı bir vaxtda blok niyə götürülür? Bank təhlükəsizliyi artırmaq əvəzinə, azaldır.

Bankdan bildirildi ki, camaatın istəyi ilə blok aradan qaldırılıb. Halbuki mənə təhlükəsizliyin aradan qaldırılması yönündə də heç bir sual və məlumat verilməyib. Belə başa düşmək olur ki, bank bloku götürüb ki, vəsait hesablardan rahatlıqla çıxarıla bilsin”.

Cavid Rzayev hesab edir ki, “RabitəBank” hüquqi şəxslərin VÖEN hesabının təhlükəsizliyini təmin edə bilmir: “Kibercinayətkarlığın artdığı bir vaxtda “RabitəBank” müştərisindən hər hansı razılıq almadan VÖEN-ə bağlı hesabdan köçürmələr zamanı tətbiq olunan bloku aradan qaldırıb. Bankın günahı ucbatından da kibercinayətkarlığın qurbanı odum. Belə ki, “RabitəBank”da hüquqi şəxslər üçün nəzərdə tutulan VÖEN hesabından vəsait “Kapital Bank”a köçürülüb və mənimsənilib: “RabitəBank”dakı hesabımdan 7 500 manat “Kapital Bank”a köçürülüb. “RabitəBank” hüquqi şəxslərin VÖEN hesabının təhlükəsizliyini təmin edə bilmir. Hələ müştərini də günahlandırır ki, debet kartla daxil olduğun üçün vəsaitin oğurlanıb. Hesabdan köçürülərək oğurlanan vəsait 7 500 yox, 70 000 manat da ola bilərdi. Bunun məsuliyyətini kim çəkəcəkdi? Bank hesabımdan 7 500 manat vəsait “Kapital Bank”a daxili köçürmə ilə köçürülüb. Mən bu pulun redaksiyalara məxsus olduğunu desəm də “vecimizə deyil, onsuz da bizdən çox yazırlar”, - deyə “RabitəBank”dan cavab verirlər”.

Hazırda C.Rzayevi düşündürən əsas sual budur: “RabitəBank”ın nə marağı var ki, kibercinayətkarlığın artdığı bir vaxtda hesabdan bloku götürür: “VÖEN hesabında yüzminlərlə pul ola bilər. Bank bu bloku götürməklə göstərir ki, kibercinayətkarlarla əlbirdir. Şərait yaradılır ki, hakerlər rahatçılıqla, əziyyət çəkmədən hesabdan pul çəkə bilsinlər”.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

Müsahibimiz Akademik Milli Dram Teatrının Bədii rəhbəri, rejissor, Əməkdar İncəsənət Xadimi Mehriban Ələkbərzadədir. Uzun illər öncədən aparıcı, araşdırmaçı kimi insanların sevimlisinə çevrilən Mehriban xanımla müsahibəmizdə "Azdrama"dakı fəaliyyəti, ümumiyyətlə Azərbaycan teatrının durumu haqda suallara cavab tapmağa çalışdıq.

# "Teatr Allah üçün olan bir sənətdir"

**"Paradoks ondadır ki, kənardan gələn hər hansı yeniliyi ayaq üstə alqışlayırıq..."**



## Mehriban Ələkbərzadə: "Teatra ancaq əyləncə vasitəsi kimi baxmaq lazım deyil"

***- Mehriban xanım, ilk olaraq belə bir sual vermək istərdim, "Azdrama"ya Bədii rəhbər təyin olunandan sonra nələri dəyişdirə bildiniz və yaxud teatr həyatınızda nələri dəyişdi?***

- "Azdrama" dediyiniz yer - məkan: Azərbaycan Milli Dram Teatrıdır. Bu məkan insana düşünmək, görmək fürsəti yaradan yerdir. Çünki ancaq teatr nəyin mühüm olduğu barədə düşünməyə və başqalarının dərdinə, ya bəxtiyarlığına şərik olmağa, arzu etməyə imkan verəcək bir yerdir. Mənim gəlişimlə mütləq nəyisə dəyişmək məqsədim yox idi. Dediyim anlamda istəklər, perspektivdə daha yaxşı işlər görmək planı vardı. Doğrudur, mən bəlli yanaşma və konsepsiya ilə doğma teatrıma qayıtdım. İlk mərhələdə özüm teatrda bütün kollektivin iştirak edəcəyi monumental və fəlsəfi tamaşa hazırladım. Asan proses deyildi. Bu böyük kollektivi, çoxdan monumental tamaşalar hazırlanmayan, aylarla tamaşalarda oynamayan aktyorların hamısını bir yerdə, cəm halında bir tamaşada yığmaq, əslində, çətin mərhələ idi. Halbuki bir yüngül komediya ilə daha çox simpatiya və uğur qazanmaq yolu da vardı. Amma mən bütün heyəti ayağa qaldırmaqg sabah "yola çıxmaq" üçün potensial gücü görmək istəyirdim. Bunu ilk Milli Teatrda yox, əvvəl Gənc Tamaşaçılar Teatrında da həyata keçirdim. Əslində, bu, bütün heyətin gücünə baxmaq üçün mənim məqbul bildiyim taktikadır. Teatrda tamaşalar adətən daha azsaylı iştirakçılarla - 5-10 nəfər aktyorun iştirakı ilə hazırlanır. Bu, bütün teatrın məşğulluğu deyil. Amma mən 10 ildən sonra "Azdrama"ya qayıtdıqda öz tətbiq etdiyim taktika ilə getdim. Çətin oldu. Amma nəzərdə tutulan nəticə üçün hesablanmış iş idi. Bu, az qala teatrın yadırğadığı ağır bir iş prosesi idi.

***- Bunu teatr aləmində yenilik hesab edirsiniz?***

- Mən "yenilik" demədim. Yanaşma dedim. Əsas məsələ hər bir şeyi növbəti dəfə, yenidən relsə qoymaq idi. Bu, nizam-intizam məsələsi, aktyorlara yaradıcı anlamda diqqət idi. Bu onların iş qabiliyyətlərinə indiki zamanda əminlik idi. Onların daha yaxşı işləməsi üçün teatr daxilində dəyərləndirmələr aparmaq, o aktyorlarla həm inzibati, həm mənəvi cəhətdən yekdillik, peşə kolifikasiyası, həm də toparlanmaq prosesi idi. Teatr tamaşaçıdan umduğu intellekt və təxəyyülü aktyordan da tələb etməlidir. Hər ikisinin gözü beyni üçün pəncərədir. Hər ikisinin BEYNİ görür... Gördüyünü hadisəyə çevirə bilməlidir. Yəni gördüyünü təfəkkürü ilə birləşdirə bilməlidir. Mən bu ağır və böyük işlə həm də bu yoxlanışı etdim. Bu da normal qaydalardan biridir ki, hər bir teatrın əməkdaşı yeni bədii rəhbərin, baş rejissorun nə istədiyini bilməlidir. Bilirsiz, hamı "yenilik" istəyir, yenilik gözləyir. Paradoks ondadır ki, kənardan gələn hər hansı yeniliyi ayaq üstə alqışlayırıq. Amma özündə yeniliyi qəbul etmirlər. Ya ağlı, zövqü çatmır, ya bacarıqsızlığın müdafiəsidir, ya da qərəz və həsəd öz işini görür.

***- Başqa xarici dövlətlərdə, heç uzağa getməyək, qardaş Türkiyədə teatrlar özləri özlərini maliyyələşdirirlər, dövlətdən, hansısa nazirlikdən asılı deyillər. Bizdə isə teatrları dövlət maliyyələşdirir. Ümid varmı ki, tezliklə bizdə də teatrlar özlərini maliyyələşdirə biləcəklər?***

- Bilirsiniz, bu, dövlətin mədəniyyət strategiyasına aid məsələdir. Bu, dövlətin teatrlara diqqəti və münasibətidir. Azərbaycan teatrı dövlət teatrıdır. Həvəskar, özəl teatr deyil ki, mütləq kassaya görə işləsin, kassaya görə var olsun. Türkiyədə amatör (amateur theatre, həvəskar) teatrlar daha çoxdur. Ümumiyyətlə belə bir yol, yanaşma da var ki, tamaşaçı nə sevirsə, nə istəyirsə o cür tamaşa hazırlamaq lazımdır. O zaman tamaşalardan qazanc götürmək əsas məsələ kimi nəzərdə tutulur. Bu yanaşmada ideoloji məqsəd yoxdur. Bu, sənət naminə deyil, kassa naminə, dolanışıq naminə gedilən yoldur. Yəni tamaşaçı hansı tamaşanın yaşayıb-yaşamayacağına qərar verir. Amma biz dövlət teatrıyıq. Bizim sənət naminə və ideologiya naminə müəyyən vəzifələrimiz var. Və bizdə bu məsələlərə baxış çox fərqlidir. Doğrudur, bizim də özəl teatrlarımız var. Onlar siz deyən qaydalarla işləyə bilərlər. Biz isə dövlətin mədəniyyət siyasətini yerinə yetiririk. Ona görə də dövlətin dəstəyindəyik.

Amma biz asılı deyilik. Biz repertuar planını özümüz qururuq. Nazirlik bununla bağlı bizə hansısa göstəriş vermir. Biz öz kadrlarımızı özümüz müəyyən edirik. Biz işlədiyimiz insanları, rejissorları çox sərbəst şəkildə müəyyənləşdiririk. Bu baxımdan, demək olar ki, demokraktik abhavadayıq. "Nazirlikdən asılılıq" sözü, ümumiyyətlə, yerində deyil. Sizin dediyiniz məsələ keçmişdə - 30 il bundan əvvəldə qalıb. İndi biz sadəcə olaraq dövlət strategiyasının mədəniyyət hissəsiyik. Bu da normaldır. Dövlətin mədəniyyət siyasətinə xidmət edən bir müəssisəyik. Əlbəttə, sənət müstəqilliyimizlə birgə.

O ki qaldı Azərbaycanda teatrın tam sərbəst olaraq öz maliyyəsi ilə yaşaya bilməsi, var olmasına, bu, bir az çətin məsələdir. Azərbaycan xalqı heç də teatral millət deyil. Bizim tamaşaçının intellektual, yaxud fəlsəfi teatra heç tabı yoxdur. Ən yaxşı halda melodrama, yaxud komediya istəyir. Biz daha çox filmə, seriala baxırıq. Amma teatr incəsənətin ən çətin, ən intellektual, ən canlı növüdür. Təsəvvür edin ki, siz evdə, internetdə hansısa filmə baxa bilirsiniz, pultu basırsınız, istədiyinizi seçirsiniz. Amma gedib filmin özünə kinoteatrda baxmaq, artıq bu filmin dəyərini verməkdir. Teatra canlı sənət olaraq dəyər verən az olsa da, var. Canlı sənətin öz xiridarları var. Təxmin edə bilərsinizmi ki, simfonik musiqiyə qulaq asmaq üçün konsertə gedən insanların sayı nə qədərdir?

***- Az olar.***

- Çox az. Bu o deməkdir ki, o adamların ən azı musiqi savadı, meyli və zövqü üst-üstə düşməlidir. Bu, çox çətin sənətdir. Ümumiyyətlə, canlı sənətlərin hamısı çətindir. Teatr həmişə tamaşaçıdan müəyyən hazırlıq istəyir. Teatra ancaq əyləncə vasitəsi kimi baxmaq lazım deyil. Teatr bizim arzuladığımız, düşündüyümüz, həll edə bilmədiyimiz gerçəkliyin təxəyyüldə olan variantdır. Müasir tamaşaçıları nəzərə alsaq, müasir teatrın yeniliyə, yeni formalara, yeni anlama nə dərəcədə ehtiyacı var? Sual budur, bu... Dediklərimizə sonuc versək: beynimiz nəyi necə düşünürsə, teatrda da onu görmək istəyir.

***- Teatr həm də maarifləndirici rol oynayır...***

- Bəli, həm də maarifləndirici rol oynayır. Amma əsasən bu sənət təxəyyülə işləyir. Bu, Allah üçün olan bir sənətdir. Onu anlamayan adam teatra əyləncə üçün gəlir. Əyləncə görməyəndə əsəbləşir. Əlbəttə, hər kəsin gözümüz üstə yeri var. Əyləncə də olmalıdır. Amma teatr yaxşı mənada ideoloji iş görməlidir. Müəyyən mənada oxuduğumuz əsərlərin tamaşa variantını, təcəssüm variantını göstərməlidir. Bütövlükdə bunun fövqündə maarifləndirmə durur. Maarifləndirməyə meyl nə qədərdisə, teatra da meyl o qədərdir.

Haşiyə çıxım: Müasir teatr dinamik inkişaf edən sənətdir. Demək ki, tamaşa tək forma ifadəsi deyil, tamaşaçı ilə ifaçı arasında münasibətləri formalaşdıran müəyyən situasiyanın yaradılmasıdır. Müasir teatr tamaşanı müstəqil sənət əsəri kimi dərk etmək və reallaşdırmaq cəhdi ilə yanaşı, rejissoru da müəllif kimi anlamaq cəhdidir.

***- Gənc Tamaşaçılar Teatrında "Kod adı V.X.A" (Vətən Xainlərinin Arvadları - müəl.) adlı tamaşanız çox böyük əks-səda, ajiotaj yaratmışdı. Nə vaxtsa "Azdrama"da da o cür tamaşalara baxa biləcəyik?***

- Siz "Əsrə bərabər gün"ə baxmısınız?

***- Təəssüflər olsun ki, baxmamışam.***

- Onda "nə vaxtsa" sözü yerində deyil. Mən düşünürəm ki, "Kod adı V.X.A" gerçək reallığı yaşadığımız dəhşətli tarixin Sovet dövrünə həsr olunan ən məşəqqətli 37 illərini əks etdirirdi. Bu tarixi faktlarla bərabər, həm də emosianal və həssas məqamları da özündə ehtiva etmişdi. "Əsrə bərabər gün" isə Çingiz Aytmatovun yaddaş və torpaq haqqında ən uzun hekayəti idi. Bu, Aytmatov dühası olmaqla yanaşı, həm də fəlsəfi teatrdır. Böyük mənada, kollektiv iş anlamında müqayisə etmək olar. Amma janr, tamaşaçıya aşılamaq istədiyimiz məqsədin forması, məramı anlamında bu fəlsəfi teatrdır, o isə konkret realist (sənədli dram) teatr idi. Hədəflər başqadır, amma yanaşma forması eynidir: tamaşaçıya həyatı böyük tabloda göstərmək.

***- "Azdrama"ya rəhbər təyin olunmağınız teatrsevərlər üçün sevinclə qarşılandı. Sənət adamları da inanır ki, siz çoxsaylı tamaşaçısı olan "Azdrama"nı əvvəlki səviyyəsinə qaytara biləcəksiniz. Hazırda bu istiqamətdə nə kimi planlarınız var?***

*(Ardı var)*

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

# Qeyrətmənlərin Sizif əzabı

“Ölənin arxasınca danışmazlar”. Bu axmaq “aforizmin” kimlər tərəfindən, nə üçün uydurulduğunu yaxşı bilirəm. Qərinələr boyu naqis, hər cür lənətə layiq elə şərəfsiz olmayıb ki, əməlləri bu sözlə ört-basdır edilməsin. Rəyasətə çatmış oğullar vəzifəsindən sui-istifadə edərək satqınlıqları ilə ad qazanmış ata-babalarını təmizə çıxarıblar. Çox vaxt buna nail də olublar. Danışmağa çoxlu cəsarəti çatmayıb. “Əşşi, olan olub, keçən keçib!”, “Keçənə güzəşt deyərlər”, “Zamana belə idi!”,”Günahsız insan tapmaq müşküldür!” və s. bu kimi sözlərlə o bəd əməl qalmayıb ki, ona bəraət qazandırmayaq.



Firuz HAŞIMOV



Bir əsr tarix üçün heç nədir, amma bu “heç nədir”in əsnasında bəzən ümmanlar qədər qanlar tökülür, xanədanlar, məmləkətlər yoxa çıxırlar, mən daha kütləvi psixoz səviyyəsinə çatmış bədnam inqilabçılardan, “xalq hərəkatları”ndan danışmıram.

Bəzən qəza-qədər qələminin hökmü ilə bir ipləmə nəhəng dövlətin rəhbəri səviyyəsinə qalxır və hər sayıqlaması, əstəğfürullah, Quran ayəsinə dönür. Belə yerdə artıq-əskik danışmaqdan söz gedə bilməz. Avantürist islahatları ilə sovet hakimiyyətinin süqutunun təməlini qoymuş Xruşşovun məşhur “Sovet adamlarının indiki nəsli kommunizmdə yaşayacaqdır” sözlərini xatırlayın. Rusiyada nələrin baş verdiyini uzaqdan uzağa bilsək də, burada bizim müstəmləkə ədəbiyyatı və mədəniyyətinin xadimləri az qala çırtıq çalıb oynayırdılar. Məhz bu illərdə “sosializm realizminin” bütün tələblərinə cavab verən xaltura işləri ortaya qoyanlar hörmət, izzət sahibi oldular. Millətin tam gədalaşmasını istəyən kommunist diktatorlar qısa vaxt ərzində özlərinin fərraş, qulam dəstələrini də yaratdılar. Kim idi bunlar? Ali məktəblərin humanitar fakültələrində, “elmi tədqiqat” institutlarında ştamplanıb buraxılan ”namizədlər və doktorlar”. Mərkəzi Komitənin, Yazıçılar İttifaqının əmrlərinin xeyir-duası ilə dərc edilmiş elə bir zibil yox idi ki, onu “sənət incisi” kimi cəmiyyətə sırımasınlar. Rus dillilərin öz aləmləri, öz çevrələri vardı, onlar min il də qalsa, dönüb bizim “korifeylərə” də baxmaq istəmirdilər.

Rus dilində buraxılmış rus və Avropa klassiklərinin əsərlərini abunə yolu ilə alıb evdə saxlamaq dəbə düşmüşdü. Nəinki imkanlı məmurlar, respublika miqyasında tanınmış qələm sahibləri illərlə nə Qoqolun, nə də Dostoyevskinin bir əsərini də vərəqləmirdilər. Nələrinə lazım idi? Özləri öz zir-zibillərini çap etdirir, tamaşaya qoyur, öz “saykalarının” üzvlərinə tərif elətdirirdilər. Vay yaltaqlana bilməyənlərin, ya da bir əyanın qarşısında səcdə etməyənlərin halına. Moskva mətbuatında on illər boyu o həqarət, o nifrin qalmadı ki, üzərimizə yağdırmasınlar. Bu boyda ölkədə iki kişi çıxmadı ki, şovinist əbləhləri yerində oturtsun. Dədə Qorqudu “qoca tülkü”, Nizamini “saray yaltağı” adlandıran yazıları oxumuşam. İçərişəhərdə bərpa pərdəsi altında murdar “yevroremont” əməliyyatı keçiriləndə hansı qələm sahibi dilləndi?

İşğal altına düşmüş ərazilərdə onlarla muzey, qalereya, talan və tarac olundu. Nadir sənət əsərləri artefaktlar asaritiqə alverçilərinin əlləri ilə xaricə daşındı. Mən bədbəxt dəfələrlə yazdım, fəryad elədim.

Bütün hakimlərin qılıqlarına girə bilən anarların, elçinlərin və digər konformistlərin tükləri də tərpənmədi. Bir ölkədə ki, vətənpərvərlik təbliğatı aygünlərə, elzalara, zaurlara, şou biznes həşəratına həvalə edilsin, orada ziqiymət sənət incilərindən danışmaq günahdır.

Yazını burada dayandırıb, “Təzadlar” qəzetinin bu ilki 7-ci sayını gözdən keçirirəm. Rəqib hesab elədiyi şəxslərə sözünü mərd-mərdanə deyən bu qəzetə xüsusi hörmətim var. Bu qəzet məmləkətdə yeganə məcmuədir ki, millətin mənəviyyatına qənim kəsilmiş ən şərəfsiz, ən sırtıq, sifətləri sürtük moçaya dönmüş naqislərə layiq olduqlarını deyir. İndi də sözüm bu qəzetin əməkdaşlarınadır.

Yazını burada dayandırıb, “Təzadlar” qəzetinin bu ilki 7-ci sayını gözdən keçirirəm. Rəqib hesab elədiyi şəxslərə sözünü mərd-mərdanə deyən bu qəzetə xüsusi hörmətim var. Bu qəzet məmləkətdə yeganə məcmuədir ki, millətin mənəviyyatına qənim kəsilmiş ən şərəfsiz, ən sırtıq, sifətləri sürtük moçaya dönmüş naqislərə layiq olduqlarını deyir. İndi də sözüm bu qəzetin əməkdaşlarınadır.

- Ey Azərbaycanın xaki-pakının qeyrətmənd balaları, siz nəyə, kimlərə qarşı vuruşduğunuzu hələ axıra qədər başa düşməmisiniz. Gündə min zəfər şeypuru səslənsə də, min kərənay nərildəsə də, hər tində qara zurnalar “Misri”, “Cəngi” çalsalar da, bir həqiqəti örtbasdır eləmək mümkün olmayacaq. Cəmiyyətimiz xəstədir və bu mərəzi heç bir həcəmətlə nəzir-niyazla müalicə etmək mümkün deyil. Cərrah bıçağı lazımdır....

Gəncliyin zövqünü korlayan, gül kimi milli ifaçılıq sənətimizi çirkaba batıran, efiri, estradanı “balaqana” döndərənlərə qarşı qibtə ediləsi inadkarlıqla mübarizə aparanları alqışlasaq da onlara rəhmim gəlir. Özlərini millətin nağdı-nisyəsi hesab edən, bütün tədbirlərdə ön cərgələrdə əyləşib ağayana nəzərlərlə sadə rəiyyətə baxan ağalardan biri də özlərini oda-közə vuran qələm sahiblərinin səslərinə səs vermir.

Kor da görür ki, cəzasızlıqdan tam azğınlaşmış, vampirləşmiş hakim zümrə sözü üzə şax deyən qeyrətli jurnalistləri əfsanəvi Sizifin gününə salıblar(Sizif - Sisif (Sisyphos) qədim yunan mifologiyasında küləklər hökmdarı Eolun oğludur. O, həm də Korinfin qurucusu və padşahı olmuşdur. Allahları aldatdığı üçün onu dağın ətəyindən başına kimi daş diyirlətməyə məhkum etmişlər. Daş isə dağın zirvəsinə çatan kimi aşağı yuvarlanarmış. Bu anlamda Sizifin gördüyü iş səmərəsiz, ağır, yorucu və üzücü əmək mənasına gəlirdi. “Sizif əməyi”, “Sizif daşı” ifadəsi də buradan meydana gəlmişdir - red.).

Yəni əzab-əziyyət, qan-tər tökmək, əlləşib-vuruşmaq var, amma ortada heç nə yoxdur. Hürriyyətin ab-havasından məstkam olanlar tamam başqadırlar.

Qəzetin mütəmadiyən “Həftəbecər” adlanan səhifəsində “təriflənən” gözəlcələri hər biri sərvəti-samanlı bir ağanın himayəsi altındadır. Özəl telekanallar da ağaların arzusu ilə kimi istəsələr, ona da efir vaxtı ayırıb, çıxışları üçün şərait yaradırlar. Tez-tez reklam edilən, gecə-gündüz ekrandan düşməyin “gözəlcə” daha çox toylara aparılır. Burada mütrüfləşən “sənətçilərdən” danışmaq yerinə düşər.

Amma yenə də sağ olsunlar, “Təzadlar” qəzetinin yazarları gəncliyin mənəvi aləmini zəhərləyən güruhu düzgün müəyyən ediblər. Mən ədaları yerə-göyə sığmayan titullu ziyalıları qınamıram, niyə bunlar efir telekanalları başına almış düşüklük, zövqsüzlük barədə bir kəlmə də demirlər. Niyə də qınayım? Məhz bu nuvoriş zümrəsinin toy-düyünlərinə, kef məclislərinə dəvət olunub, yuxarı başa çəkilənlər “nümunəvi” həyat tərzi ilə seçilənlərdir.

Kasıb-kusubun da qızları “Təzadlar” qəzetinin hər sayında “təriflənən”, pula pul deməyən lotudan da, YAP-ın yüksək çinli xadimlərindən də qayğı, nəvaziş, görənlərə baxıb bundan sonra nə edəcəyini yaxşı bilir.

# Göyçay rəhbərliyi prezidentin sərəncamına "düzəliş edib"

## Çərəkə kənd sakinləri rəsmi qurumlardan şikayətçidir



**Göyçay rayonu, Çərəkə kənd sakinləri tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə aidiyyəti qurumlara müraciət edən şikayətçilərin məktubunu olduğu kimi dərc edirik:**

"Bu şikayətimizdə yazıb bildirirk ki, Göyçay rayonunda bir qrup vəzifəli şəxs əlbir olub, öz səlahiyyətlərindən sui-istifadə edirlər. Onların qanunsuzluqla məşğul olması nəticəsində isə çoxlu sayda vətəndə əziyyət çəkir.

İlk olaraq Prezident cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk ki, Çərəkə kəndinin asfalt örtüyünün tikintisi üçün dövlət büdcəsindən pul ayrılmasına dair 25 dekabr 2023-cü il tarixdə sərəncam imzaladı. Ancaq çox təəssüf olsun ki, Göyçayda bir qrup vəzifəli şəxs Çərəkə kəndinə çəkiləcək asfalt yolun layihəsini öz maraqlarına uyğun olaraq dəyişərək, qanusnuzluğa yol veriblər.



Çərəkə kəndinə çəkiləcək yolun ilkin layihəsində əsas (ana yol) yol kimi bu ərizəni imza edən vətəndaşların yaşadığı ərazidən keçməsi nəzərdə tutulsa da, sonradan vəzifəli şəxslər saxtakarlıq edib, lahiyəni dəyişib işlək olmayan ara yola asfalt çəkilməsinə dair ikinci lahiyəni həyata keçirmək istəyirlər. Vəzifəli şəxslər bu qanunsuzluğu ona görə ediblər ki, 1-ci lahiyədə göstərilən əsas yolun üzərində 2 körpü var. Həmin körpülərin tikintisi həyata keçiriləcəyi təqdirdə onlara pul qalmayacaq. Buna görə, lahiyəni qanunsuz olaraq dəyişdiriblər. Hansı ki, 1-ci lahiyədə nəzərdə tutulan yolun üzərində kəndin 3 qəbristanlığı, 1 məktəbi, 1 məscidi var. Həmçinin, avtobus marşrutu bu yoldan keçir. Sakinlər həmin yoldan daima çox istifadə edirlər.



Qanuni layihədə göstərilən əsas yolun keçdiyi ərazidə çoxlu sayda evlər var, kəndin əsas marşrut avtobusları, avtomobilləri, eləcə də qonşu Çərəcə kənd sakinləri həmin yoldan istifadə edirlər. Əsas yolun tikintisi üçün tərtib edilmiş ilkin lahiyəni ləğv edib, az sayda sakinin istifadə etdiyi ara küçənin yolunun tikintisinə dair lahiyə hazırlanması vəzifə cinayəti hesab olunur ki, bunu Göyçayda vəzifəli şəxslər əlbir olaraq ediblər. Qanunsuz hazırlanmış 2-ci lahiyədə nəzərdə tutulan küçənin yolunun tikintisi bələdiyyə büdcəsi vəsaiti hesabına təmir edilməlidir.



Biz Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin qəbulunda olub, bu barədə şikayətimizi ona çatdırsaq da, heç bir tədbir görmədi. Bundan sonra bizə məlum oldu ki, bu qanunsuzluqdan Natiq Ağayevin bilavasitə məlumatı var. Hətta biz sakinlər belə bir təkliflə çıxış etdik ki, 1-ci lahiyə həyata keçiriləndə çıxarılan asfalt qalıqları 2-ci lahiyə olan küçəyə tökülərək, yol təmir edilsin.



Biz Çərəkə kənd sakinləri prezidentin uğurlu siyasətini bəyənirik və həmişə dəstəkləyirik. Ancaq yerlərdə bəzi neqativ ünsürlər yarıtmaz korrupsiya əməlləri ilə prezidentin mütərəqqi fəaliyyətinin üzərinə kölgə salmağa çalışırlar. Çərəkə kəndinin əsas yolunun tikintisi üçün pul ayrılmasına dair sərəncamdan sonra biz sakinlərə bildirildi ki, layihəyə əsasən sizin yaşadığınız ərazinin yoluna asfalt çəkiləcək, çünki əsas yol kimi bura nəzərdə tutulub. Ancaq sonradan nə baş verdisə, həmin lahiyəni qanunsuz olaraq ləğv edib, öz "arşınaları"na uyğun qanunsuz lahiyə tərtib etdilər.

Göyçayda məlum vəzifəli şəxslər Prezident cənab İlham Əliyevin sərəncamı ilə Çərəkə kəndinin yol tikintisi üçün ayrılmış vəsaitin düzgün xərclənməsinə əngəl yaradıblar. Bu isə korrupsiya əməlidir ki, araşdırılmasına zərurət var.

Mətbuat vasitəsi ilə Prezident cənab İlham Əliyevdən və Birinci vitse-prezident Mehriban xanım Əliyevadan xahiş edirik, şikayət ərizəmiz bizim iştirakımızla yerində araşdırılmasına, qanunsuzluğa yol verib dövlət vəsaitini təyinatı üzrə xərcləmədən, yol tikintisində qanunsuzluğa, saxtakarlğa yol vermiş vəzifəli şəxslərin barəsində qanuni tədbirlər görülməsinə və bizim yaşadığımız əsas yolun asfalt örtüyü ilə təmin edilməsinə tapşırıq verəsiniz".

Qeyd edək ki, məktbua Göyçay rayonu, Çərəkə kənd sakinləri - Mirzəyev Qadir Sabir oglu (Şəhid Siyavuş Mirzəyevin qardaşı), Kərimov Agasəf Abduləli oglu, Rəhimov Rəşid Allahverdi oglu, Rəhimov Rasif Mürşüd oglu, Mirzəyev Rasim Sabir oglu, Rəhimov Təvəkgül Rəşid oglu, Abdullayev Şöhrət Fikirət oglu, Mirzəyev Kamil Qadir oglu, İsmayilov Sənan Nazim oglu, İsmayilov Nihat Şahin oglu, Nəbiyev Fuad ismayıl oglu və digərləri imza atıblar.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***




# "Xəstə oğlumu hərbi xidmətə aparırlar"

## Ucar sakini deyir ki, oğlu hərbi xidmətə yararsız olsa da, çağırış vərəqəsi gəlib

**Ucar rayonu, Qaradağlı kənd sakini Əhmədova Rəhilə Şərif qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, oğlum Fərid xəstə olsa da, onu qanunsuz olaraq həqiqi hərbi xidmətə aparırlar:**


Əhmədov Fərid Elçin o.
(soyadı, adı, atasının adı)
Ünvan Qaradağlı k

ÇAĞIRIŞ VƏRƏQƏSİ

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həqiqi hərbi xidmətə çağırılırsınız.

ƏMR EDİRƏM: "22" 04 2024 il saat "900" hərbi xidmətə yola düşmək üçün rayon (şəhər) idarəsinə (şöbəsinə, bölməsinə) gələsiniz.

Ünvan:

Özünüzlə pasport və qeydiyyat vəsiqənizi götürməlisiniz.

Ucar rayon (şəhər) Səfərbərlik və Hərbi Xidmətə Çağırış idarəsinin (şöbəsinin, bölməsinin) rəisi

(rütbə) R. İsmayılov (soyadı, adı)

kəsmə xətti

"Səfərbərlik və Hərbi Xidmətə Çağrı üzrə Dövlət Xidmətinin Ucar şöbəsinin rəhbərliyi həkim komissiyası ilə əlbir olub, mənim ciddi xəstə oğlum - 01.04.2006-cı il tarixdə anadan olmuş Əhmədov Fərid Elçin oğlunu hərbi xidmətə aparmaq istəyirlər. Artıq buna dair çağırış vərəqi də bizə təqdim edilib.

Qeyd edim ki, oğlum Fəridin anadagəlmə ürəyi qüsurludur, ciddi epilepsiya xəstəsidir. Onda tez-tez tutmalar baş verir, ürəyi gedir.

Oğlum Fərid hərbi xidmətə yararsız olsa da, onu qanunsuz olaraq həqiqi hərbi xidmətə aparırlar. Bu açıq-aşkar qanunsuzluqdur ki, Səfərbərlik və Hərbi Xidmətə Çağrı üzrə Dövlət Xidmətinin Ucar şöbəsinin rəhbərliyi həkim komissiyası ilə əlbir olub ediblər.

Qeyd edim ki, Fəridin atası Əhmədov Elçin Sırac oğlu eyni xəstəlikdən 2 il əvvəl vəfat edib. Bu xəstəlik onlarda irsidir. Mənim oğlum hərbi xidmətə aparılarsa orada öləcək ki, bunun məsuliyyəti saxtakar hərbi həkim komissiyasının üzərinə düşəcək. Buna görə, oğlum Fərid obyektiv müayinə olunmalı və ciddi xəstə olduğu üçün hərbi xidmətə aparılmamalıdır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin belə ciddi xəstəyə nə ehtiyacı var?! Mən mərkəzi orqanlardan xahiş edirəm, şikayətimi obyektiv araşdırılsın və ciddi tədbirlər görülsün".

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# "Rəsmi Bakı COP29 konfransına qədər

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

**Bugünlərdə, daha dəqiq desək, aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və iki ölkənin dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşü keçirilib. Və bu zaman Qazaxın 4 kəndinin Azərbaycana qaytarılması barədə Ermənistanla razılıq əldə edilib. Belə ki, delimitasiya prosesinin ilkin mərhələsində tərəflər sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanis Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrimli (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsini razılaşdırıblar. Qərara alınıb ki, sərhəd xəttinin bu hissələrinin təsviri koordinatları yerdəki geodeziya ölçmələrinə əsaslanaraq dəqiqləşdirilməsi nəzərə alınmaqla tərtib edilsin və bu, tərəflər arasında 15 may 2024-cü il müddətinədək müvafiq Protokol-təsvirlə sənədləşdirilərək razılaşdırılmalı və imzalanmalıdır.**

Bununla bağlı açıqlama verən Ermənistanın baş naziri Nikol Paşinyan qeyd edib ki, Ermənistan və Azərbaycan ilk dəfə olaraq məsələni danışıqlar masası arxasında həll edib: "Mən baş verənləri çox şişirtməyimizi istəməzdim, eyni zamanda, qiymətləndirməməyimizi də. Razılaşma ilə Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü tanıyıb, həmçinin təsdiqləyiblər ki, yeni sərhəd yaradılmır, SSRİ-nin dağılması zamanı mövcud olan sərhəd bərpa olunacaq". Paşinyan bu faktı Ermənistanın suverenliyi və müstəqilliyinin növbəti mərhələsində əsas faktor hesab etdiyini də vurğulayıb.

### "Artıq Avropa İttifaqı və ABŞ-ın Azərbaycanla Ermənistan arasında vasitəçiliyinə ehtiyac yoxdur"

Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Rusiya sülhməramlı qüvvələrinin Azərbaycandan çıxması Nikol Paşinyanı real addımlar atmağa, Qazaxın 4 kəndini qaytarmağa sövq edib. Politoloq bildirib ki, rəsmi Bakı Azərbaycanın ev sahibliyi edəcək COP29 konfransına qədər Ermənistanla sülh müqaviləsi bağlamaqda maraqlıdır.

Milli Cəbhə Partiyasının sədr müavininin fikrincə, artıq Avropa İttifaqı və ABŞ-ın Ermənistanla Azərbaycan arasında vasitəçiliyinə ehtiyac yoxdur: "Azərbaycanla Ermənistan arasında danışıqlarda vasitəçilik etmiş və nəticəsiz olan Moskva formatı fiaskoya uğradı. Bundan sonra Avropa İttifaqı və ABŞ-ın da vasitəçiliyinə ehtiyac yoxdur. Çünki Azərbaycan və Ermənistan ikitərəfli danışıqlarla, üçüncü tərəfin iştirakı olmadan real nəticələr əldə edə bilir. Düşünürəm ki, əldə olunmuş məlum razılıq və protokolun imzalanması ikitərəfli danışıqların müsbət dinamikasının göstəricisidir. Burada təkcə Azərbaycan deyil, Ermənistan da uduşludur. Ermənistan danışıqlarda daim üçüncü tərəfin iştirakını təklif edirdi, amma Azərbaycan bundan imtina edirdi. Hesab edirəm ki, əgər İrəvanın təklifi reallaşaydı, o zaman heç bir irəliləyiş olmayacaqdı. Nikol Paşinyan siyasi iradəsini davam etdirəcəksə, Azərbaycan tərəfinin təklifləri əsasında irəliləyiş əldə olunarsa, onda tezliklə liderlərin iştirakı ilə sülh müqaviləsi bağlana bilər. Sülh müqaviləsi isə ya Qazaxıstanın paytaxtı Astanada, ya da Gürcüstanın paytaxtı Tiflisdə bağlana bilər".



Məhəmməd Əsədullazadə: "Rusiya sülhməramlı qüvvələrinin Azərbaycandan çıxması Paşinyanı real addımlar atmağa, Qazaxın 4 kəndini qaytarmağa sövq edib"



Elxan Şahinoğlu: "Zəngəzur dəhlizi ilə bağlı danışıqları uzatmağın Ermənistan üçün faydası yoxdur"



Zeynal Əmrəliyev: "İlham Əliyevin usta siyasəti üç Cənubi Qafqaz ölkəsi arasında əməkdaşlıq mühitinin qurulması, bölgəyə xarici təsirlərin minimuma endirilməsi və bölgənin Baltik regionu kimi inkişaf etdirilməsi ilə nəticələnəcək"

> Milli Cəbhə Partiyasının sədr müavininin fikrincə, artıq Avropa İttifaqı və ABŞ-ın Ermənistanla Azərbaycan arasında vasitəçiliyinə ehtiyac yoxdur: "Azərbaycanla Ermənistan arasında danışıqlarda vasitəçilik etmiş və nəticəsiz olan Moskva formatı fiaskoya uğradı. Bundan sonra Avropa İttifaqı və ABŞ-ın da vasitəçiliyinə ehtiyac yoxdur. Çünki Azərbaycan və Ermənistan ikitərəfli danışıqlarla, üçüncü tərəfin iştirakı olmadan real nəticələr əldə edə bilir...

### "İki ölkə arasında delimitasiya və demarkasiya prosesi davam edəcəksə, tərəflər Zəngəzur yolunun açılmasını da razılaşdıracaq"

Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistanın Qazaxın 4 kəndini danışıqlar əsasında Azərbaycana qaytarması iki ölkə arasında müharibə ehtimalını aşağı salıb: "Məhz son 30 ildə ilk dəfədir ki, ikitərəfli danışıqlar müsbət nəticə verərək hərbi əməliyyatlarsız ərazi məsələsi həllini tapdı. Əgər danışıqlar prosesində Rusiya və Avropanın digər ölkəsi iştirak edərdisə, heç bir müsbət nəticə olmayacaqdı. Növbəti mərhələdə anklav olan kəndlər və Gədəbəyin Başkəndi məsələsi müzakirə oluna bilər. Ermənistan tərəfi Başkəndi anklavı sayır və Azərbaycan da bundan imtina etmir. Danışıqlar prosesində Azərbaycanla anklavlarla bağlı mübadilə edilə bilər. Əgər dörd kəndlə bağlı müsbət nəticə varsa, danışıqlar yolu ilə həll edilibsə, deməli qarşılıqlı etimad mühiti yaranıb. İki ölkə arasında delimitasiya və demarkasiya prosesi davam edəcəksə, tərəflər Zəngəzur yolunun açılmasını da razılaşdıracaq. Qeyd edim ki, Zəngəzur yolunun açılması Ermənistan hakimiyyətinin siyasi iradəsindən asılıdır. Azərbaycanın Zəngəzur yolu üçün heç bir hərbi təzyiqlərə əl atması gözlənilmir. Ermənistan rəhbərliyi Zəngəzur yolunun açılmasına bir şərtlə gedər ki, təhlükəsizliyə və gömrük sisteminə özü nəzarət etsin. Azərbaycan da bununla o halda razılaşa bilər ki, Zəngəzur yolundan Naxçıvana daşınan yüklər və Azərbaycan vətəndaşları üçün imtiyazlı güzəştlər tətbiq edilsin. Düşünürəm ki, Ermənistan tərəfi yolun açılmasına gedərsə, İran tərəfi bununla razılaşacaq".

### "Moskva və Tehranda Bakı ilə İrəvanın vasitəçi olmadan razılaşmasına sevinən yoxdur"

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu qənaətdədir ki, 4 kəndin Azərbaycana qaytarılması və sərhədlərin müəyyənləşdirilməsi prosesinə başlanılması bölgədə sülh quruculuğu prosesinə təkan verəcək: "Bakı və İrəvan razılaşma əldə ediblər. Bu, Rusiya hərbi kontingentinin Qarabağı tərk etməyə başlamasının ardından növbəti uğurlu razılaşmadır. Cənubi Qafqazda yeni mərhələ başlayır. 4 kəndin qaytarılması iki ölkə arasında çərçivə sazişinin imzalanmasını sürətləndirəcək. Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə artan gərginlik və İsrail-İran qar-

# sülh müqaviləsi bağlamaqda maraqlıdır"



Fuad Qəhrəmanlı: "Açıq-aydın görünür ki, Azərbaycanla Ermənistan arasında sülhə xidmət edən hər bir addım, mövqe Rusiya rəsmilərini qara sancıya salır"

şıdurnası fonunda Cənubi Qafqazda danışıqlar yolu ilə əldə edilən razılaşmalar hamının xeyrinədir. Növbəti mərhələdə Zəngəzur dəhlizi ilə bağlı danışıqların intensivləşməsi gələcək. Bunu da uzatmağın Ermənistan üçün faydası yoxdur. Nikol Paşinyanın dediyi kimi, Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyirsə son mərhələni də keçməli - Zəngəzur dəhlizinin işə düşməsini təmin etməlidir və bu belə də olacaq".

Politoloq hesab edir ki, Azərbaycanla Ermənistanın vasitəçi olmadan sərhədlə bağlı ilk razılaşması Rusiya və İrandakı siyasi dairələri düşündürüb: "ABŞ, Avropa İttifaqı və Türkiyə əldə edilən razılaşmanı təqdir edərkən, ard-arda açıqlamalar gələrkən, Moskva və Tehrandan hələ ki, xəbər yoxdur. Halbuki, Moskva və Tehran hər dəfə deyirlər ki, bölgə ölkələri uzaq ölkələrin iştirakı olmadan danışıqlar aparmalıdırlar. Bakı və İrəvan məhz uzaq ölkələrin iştirakı olmadan müsbət nəticə əldə ediblər. Ancaq Moskva və Tehranda buna sevinən yoxdur. Çünki Rusiya və İrandakı dairələr bölgədə sülhdən çox Cənubi Qafqaz ölkələrinin onların təsiri altında olmasını istəyirlər. Bakı ilə İrəvan arasında əldə edilən razılaşma isə Rusiya və İranın bölgəyə təsirini azaldacaq. Misal üçün baş nazir Nikol Paşinyan Tavuş bölgəsində artıq Rusiya sərhədçilərinə ehtiyac olmadığını deyib. Bakı ilə İrəvan razılaşma əldə etdiyi gün İranın Ermənistandakı səfiri Mehdi Sübhani Cənubi Qafqazda təhlükəsizliyin hazırkı kövrəkliyinin səbəbini regionda güc balansının pozulması ilə əlaqələndirmişdi: "Biz qəti əminik ki, Cənubi Qafqaz regionunda qüvvələr balansı yaradılmalıdır". Yəni Tehran öz səfiri vasitəsilə demək istəyib ki, onlar bölgədə güclü Azərbaycanın əleyhinədirlər. Güclü Azərbaycan olmasaydı, Ermənistan Azərbaycan torpaqlarının işğalını davam etdirər və bugünkü razılaşmalar əldə olunmazdı. Tehrana əvvəlki Cənubi Qafqaz lazımdır. Geri dönüş mümkün deyil".

**"Əgər Ermənistan sonuna qədər siyasi iradə göstərə bilsə, o zaman bölgədəki problemlər tez bir zamanda həll olunacaq"**

Siyasi şərhçi Zeynal Əmrəliyev isə bildirib ki, Qazax rayonunun 4 kəndinin qaytarılması mühüm tarixi hadisə, Azərbaycan dövlətinin və şəxsən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin möhtəşəm qələbəsidir. Siyasi şərhçi qeyd edib ki, rus qoşunlarının çıxmasından dərhal sonra bu barədə razılığın əldə olunması bölgədə sülhün, əmin-amanlığın yaranacağının, Azərbaycanın artıq Cənubi Qafqaz regionundakı məsələlərdə əsas rola sahib olduğunun sübutudur: "Bütün bunlar Prezident İlham Əliyevin düşünülmüş strateji siyasətinin parlaq nəticəsi idi. Prezident Əliyevin dünyada və regionda bu qədər gərgin hadisələrin fonunda bu cür ciddi uğur qazanması həm də Azərbaycana dünya səviyyəli liderin rəhbərlik etdiyini bir daha sübut etdi. İlham Əliyev bir çox şəxsin həyata keçirə bilmədiyi tarixi missiyanı uğurla icra edir. Odur ki, "Qafqaz evi" layihəsi reallığa daha yaxındır. Bu layihənin müəllifi İlham Əliyevdir. Cənab Əliyev usta siyasəti ilə bölgəni inkişaf etdirmək, üç Cənubi




Qafqaz ölkəsi arasında əməkdaşlıq mühitinin qurulması, bölgəyə xarici təsirlərin minimuma endirilməsi və bölgənin Baltik regionu kimi inkişaf etdirilməsi ilə nəticələnəcək".

Zeynal Əmrəliyevin fikrincə, hadisələr bizim gözlədiyimizdən daha böyük çərçivədə inkişaf edir: "ABŞ və Fransanın rus qoşunlarının bölgədən çıxmasına qarşı qərəzi bundan qaynaqlanır. Azərbaycan dövləti bölgə üzərinə oynanılan imperial oyunları darmadağın etdi. Növbəti mərhələdə Gürcüstanda da problemlərin həll olunacağını, Abxaziya və Cənubi Osetiya məsələlərinin bitəcəyini görə bilərik. Cənubi Qafqaz regionu üçün "sıfır problem" regionu və 3 ölkənin qarşılıqlı əməkdaşlıq mühitində yüksək inkişafı ən böyük arzudur. Azərbaycan bunun üçün bütün siyasi iradəni göstərir. Gürcüstan da bunu arzulayır. Əgər Ermənistan da sonuna qədər siyasi iradə göstərə bilsə, o zaman bölgədəki problemlər tez bir zamanda həll olunacaq".

> Zeynal Əmrəliyevin fikrincə, hadisələr bizim gözlədiyimizdən daha böyük çərçivədə inkişaf edir: "ABŞ və Fransanın rus qoşunlarının bölgədən çıxmasına qarşı qərəzi bundan qaynaqlanır. Azərbaycan dövləti bölgə üzərinə oynanılan imperial oyunları darmadağın etdi. Növbəti mərhələdə Gürcüstanda da problemlərin həll olunacağını, Abxaziya və Cənubi Osetiya məsələlərinin bitəcəyini görə bilərik...

**"İndi Rusiyanın, yoxsa Qərbin müharibə istədiyi o qədər açıq-aydın ortadadır ki, bunun üçün dərin təhlilə də ehtiyac yoxdur, sadəcə Rusiya rəsmilərinin mövqeyinə baxmaq lazımdır"**

Siyasi şərhçi Fuad Qəhrəmanlı isə bu qənaətdədir ki, Qazaxın 4 kəndinin geri qaytarılması Ermənistanın Qərblə yaxınlaşmasının heç də Azərbaycana qarşı olmadığını sübut edir: "Əgər doğrudan da Qərb Ermənistanı Azərbaycana qarşı silahlandırmağa çalışırsa, o zaman İrəvan niyə bu kəndləri geri qaytarmağa razı olsun ki? Dünyanın harasında görülüb ki, müharibə etmək istəyən öz əlindəki torpağı sülh yolu ilə geri vermək istəyir? Əksinə, təcavüzkar həmişə yeni torpaqlar almağa çalışır və ya cığal davranıb müharibə üçün səbəblər, bəhanələr yaratmağa çalışır. Baxın, ancaq Rusiyanın xarici işlər naziri Lavrov yana-yana deyir ki, "Paşinyan bu gün hamını inandırır ki, Qazaxın 4 kəndini Azərbaycana qaytarmaq lazımdır". Adam elə danışır ki, sanki Nikol Paşinyan Rusiyanın 4 kəndini alıb Azərbaycana vermək istəyir. Açıq-aydın görünür ki, iki dövlət arasında sülhə xidmət edən hər bir addım, mövqe Rusiya rəsmilərini qara sancıya salır. Hiss olunur ki, əlacları olsa buna görə Paşinyanı publik söyüb təhqir edərlər. İndi Rusiyanın, yoxsa Qərbin müharibə istədiyi o qədər açıq-aydın ortadadır ki, bunun üçün dərin təhlilə də ehtiyac yoxdur, sadəcə Rusiya rəsmilərinin mövqeyinə baxmaq lazımdır".

**"Azərbaycan Ermənistan və Rusiya arasında gərginlikdə özünü Kremlin maraqlarını müdafiə edən tərəfə çevirmədiyi təqdirdə Nikol Paşinyanın Qərbə inteqrasiya kursu regionda sülhə və bizim milli maraqlarımıza da xidmət edir"**

Fuad Qəhrəmanlı həmçinin, onu da xatırladıb ki, 5 aprel görüşü ərəfəsində Nikol Paşinyanın ABŞ dövlət katibi Blinken və Avropa Birliyi Komissiyasının rəhbəri Ursula von der Leyen ilə görüşünün Azərbaycana qarşı yönəldiyi ilə bağlı böyük bir təbliğat kampaniyası başlamışdı: "Hətta məsələ o qədər böyüdü ki, adları çəkilən şəxslər İlham Əliyevə zəng edib belə olmadığını izah etdilər. Ancaq bu görüşün nəticəsi olaraq Qarabağı tərk etmiş ermənilərin Ermənistan cəmiyyətinə inteqrasiyası üçün pul ayrılması və onların geri qaytarılması mövzusunun bu yolla da gündəmdən çıxarılması qərarlaşdırıldı. Bizim də istədiyimiz, milli maraqlarımızın tələb etdiyi bu deyilmi? Burada bizə qarşı olan nə var, hansı təhdid elementi var ki, buna görə sülhə xidmət edən bu prosesi belə aqressiv qarşılayırıq? Ancaq bundan bir neçə gün sonra Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova rəsmi açıqlama verərək Rusiyanın Qarabağ ermənilərini yenidən öz tərk etdikləri yerə qaytarılması üçün yardım etməyə hazır olduğunu bildirdi. Hər şey bu qədər açıq ikən, kimin regionda müharibə üçün zəmin, səbəb yaratmağa çalışdığını görmək adı uşaq ağlı ilə də mümkündür. Deməli ki, Azərbaycan Ermənistan və Rusiya arasında gərginlikdə özünü Kremlin maraqlarını müdafiə edən tərəfə çevirmədiyi təqdirdə Nikol Paşinyanın Qərbə inteqrasiya kursu regionda sülhə və bizim milli maraqlarımıza da xidmət edir".

**Vazeh BƏHRAMOĞLU**



# Regionda yeni münaqişə alovlandırılır

*(Əvvəli səh 3-də)*

Düşünürük ki, bölgədə gedən tranzit dəhlizi savaşlarının təfərrüatlarına nəzər sala bildik. İndi isə qayıdaq ”Bloomberg”in proqnozuna.

Yaxın Şərqdə qeyri-sabitliyin Rusiyanın əlinə işləyəcəyi haqda proqnoza gəlincə, məsələni belə şərh edə bilərik. ”Bloomberg” yazır ki, “Şimal-Cənub nəqliyyat dəhlizinin və Rusiya Federasiyasından keçən Şimal dəniz marşrutunun Asiya ilə Avropa arasında ticarət üçün istifadəsi Yaxın Şərqdəki qeyri-sabitlik fonunda qaçılmaz ola bilər”. Həmçinin, qeyd edilir ki, hazırda bu marşrutlar Süveyş kanalından keçən marşrutdan 30-50% daha sürətlidir. Bildiyimiz kimi, Çinin Orta Dəhliz vasitəsilə Qazaxıstandan Avropaya gedən mal tədarükü Türkiyə və Aralıq dənizi vasitəsilə reallaşır. Yeni İpək Yolu marşutunun ərazisindən keçməyə namizəd olan ölkələrdən biri Rusiya idi, amma Ukrayna müharibəsi ilə bu layihə qeyir-işlək vəziyyətə salındı. Diqqət edin, Ukrayna - Rusiya müharibəsinin baş ideoloqu, maliyyəçilərindən və əsas benefisiarlarından biri Londondur. İpək Yolunun Orta Dəhlizdən keçib getməsinə müsbət yanaşan əsas cinah da Londondur. Çin ərəb ölkələrini də tərəfdaşlığa cəlb edir. ABŞ isə Yaxın Şərqi ”silkələməklə” Çinin orada möhkəmlənməsinin altını oymağa çalışır. Yeni Baharat Yolunu öz istədiyi ölkələrin ərazisindən aparmağa çalışan ABŞ bununla həm İpək Yoluna alternativ ortaya qoyaraq Çinin qarşısını kəsməyə çalışır, həm də Yaxın Şərqdə qeyri-sabitliyə təhrik edərək Pekini Rusiyanın ümidinə qoymaq məqsədi daşıyır. Niyə - Rusiyanın ümidinə qalan Çin Moskvanın nazı ilə oynamağa məcbur qalsın, Vaşqinton Moskva ilə Pekini ”sürtüşdürsün”, nəticədə Rusiyanı Pekinə qarşı öz rəqabətdə tərəfində durmağa vadar etsin. Çinin məğlubiyyətinin təməli belə qoyulur.

## “İran tezliklə nüvə bombası əldə edəcək”

Bütün deyilənlərə bir nüansı da əlavə edək. İranın İsraillə birgə ”dizayn etdiyi atışma”da bir bonusu da var. Bu, onun nüvə dövlətləri sinfinə daxil olmasıdır. Bu iddianı alman mediasında ”Bild” səsləndirib. ”Bild”in dünənki yazı başlığı belə idi: “İran tezliklə nüvə bombası əldə edəcək”. Ekspertlər son dərəcə təşvişə düşüb və xəbərdarlıq edirlər ki, İran rejimi nüvə bombası yaratmaq ərəfəsindədir və ondan istifadə edə bilər. ”Bonn Universiteti”nin ”Qabaqcıl Təhlükəsizlik, Strateji və İnteqrasiya Araşdırmaları Mərkəzi”nin direktoru Ulrix Şli, ”Biz bu məsələdə bir neçə həftəlik müddətdən danışırıq”, - deyə həyacan siqnalı verir. Ekspert həmçinin istisna etməyib ki, İran nüvə bombasından hücum üçün deyil, İsraili qorxutmaq üçün istifadə edə bilər. ”İsrail Milli Təhlükəsizlik Araşdırmaları İnstitutu”ndan İran üzrə ekspert Sima Şine isə deyib: “Bir həftə ərzində İran atom bombası istehsal etmək üçün kifayət qədər urana sahib ola bilər”.

Nüvə silahı olan ölkə statusuna malik olmaq önəmli məsələdir. Belə ehtimallar var ki, prezident seçkilərindən əvvəl ABŞ “əsrin müqaviləsi”ni - İsrail dövlətinin tanınması ilə bağlı İsraillə Səudiyyə Ərəbistanı arasında sülh müqaviləsinin imzalanmasını, yəni İsrailə ”ZƏMANƏT” təmin etməyi planlaşdırır. Səudiyyə Ərəbistanı bunun müqabilində nüvə sənayesi və energetika alacaq, müasir silah növlərinin sahibi olacaq və ABŞ-la geniş iqtisadi inteqrasiya əldə edəcək. Amma əslində isə ABŞ-ın Hindistanda açıqladığı logistika planı və Qəzzada liman tikintisi üçün 9 milyardlıq plan həyata keçirilir. Bu təfərrüatlar isə açıq qalır:

**1. Netanyahu nə vaxt və necə gedəcək?**

**2. Fələstində etnik təmizləmə nə vaxt tam olacaq?**

**3. Prosesin məhək daşı - ABŞ səudiyyəlilərdən əvvəlcə İsraili tanımağı, sonra isə ”kökə” verməyi düşünür. Səudiyyəlilər isə əvvəlcə ”kökə”, sonra İsraili tanımağı tələb edirlər.**

Düşünürük ki, baş verəcək yeni hadisələr prosesi tam anlamaq üçün yardımçı olacaq.

**Ülviyyə ŞÜKÜROVA**

# “Mənə və ailəmə qarşı qərəz o həddədir ki...”

## Qarabağ qazisindən dövlət rəhbərliyinə müraciət




**Qarabağ qazisi, AMEA-nın böyük elmi işçisi Bədəlli Məğrub Ağamalı oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Baş nazir Əli Əsədova, Milli Məclisin sədri Sahibə Qafarovaya, Ali Məhkəmənin sədri İnam Kərimova, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

“Torpağımıza düşmən saldırısı başlanan ilk gündən AMEA-nın aspiranturasında təhsilimi, elmi işimi atıb, 2 körpə uşaqlı ailəmi Allahın ümidinə qoyub Qarabağ savaşına qatılmışam. 1-ci dərəcəli zabit Qarabağ əliliyəm. DİN DQ-nin tərkibində Ağdərədə döyüşlərdə olanda kimya doktoru həyat yoldaşım TV ilə ölümüm haqqında verilən xəbərdən stress keçirib, 2-ci dərəcəli əlildir. Sizə şikayətim ƏƏSMN tabeliyindəki qurumların 2 əlil-elmi işçisi olan 10 nəfərlik ailəmə qərəzli ayrı-seçkiliyindəndir.

1. 11 ildir Nərimanov RİH başçısının 26.07.2013 tarixli 358 saylı sərəncamı ilə mənzil növbəsindəyik. Bakı İnzibati Məhkəməsinin 20.06.2016 tarixli, 2-1(81)-1095/16 saylı qərarı ilə mənzillə təmin olunmağımız öhdəliyi borclu Dövlət Sosial Təminat Xidmətinin ( hazırda Sosial Xidmətlər Agentliyi) üzərinə qoyulub. Lakin SXA 8 ildir qərəzlə dövlətin adından çıxarılan məhkəmə qərarını icra etmir, məhkəməyə rüşvət verib, icraya qadağa qoydurub. 2019-cu ildə MM-in müavini Valeh Ələsgərovun qəbulunda olanda nazir Sahil Babayevə zəng etdi və nazir də DSMF-in uyğun sektoruna göstəriş verdi. Elə həmin gün çağırıb, ərizəmi aldılar ki, Nizami rayonu, Çobanzadə küçəsində tikilən evdən mənzil ayrılacaq, lakin mənzillər qanunsuz bölündü. Mənim 4 ayrı ailədən ibarət 3-ü körpə, 2-si əlil-elmi işçi 10 nəfərlik ailəm kirayələrdə qalır.

2.ƏƏSMN tabeliyində DSMF-in Xüsusi Filialı pensiyamı qərəzlə düz hesablamır, pensiyam 2007-ci ildə DSMF-ə keçəndə, “Əmək pensiyaları haqqında” qanunun 26.1 maddəsinə zidd olaraq 45.10 manat azaldılıb. Bu qanunun heç bir maddəsi bizə tətbiq olunmur. NK-nın 08.01.2013 tarixli qərarı ilə ikiqat artan ərzaq payı norması 11 ildir hesablanmır. Prezidentin 23.12.2021 tarixli, 1525 saylı fərmanı qanunun 29.2 maddəsi (2023-dən ləğv olunub) əsasında pensiyaya 20 faizlik artımı hesablanmasına gətirməyib. Qanuna 13.05.2022-ci ildə əlavə olunan 37.3.2-1 maddəsinə görə əlilliyə, yaşa görə işləməyən kateqoriyaya keçəndən sonra işi davam etdirənlərin pensiyaları müraciətləri əsasında fərdi hesabda yığılan pensiya kapitalına uyğun yenidən hesablanır. DSMF-in Filialı isə bundan imtina edir ki, işi davam etdirirəm.(?) Yenidən hesablanma elə işi davam etdirənlərə aiddir də, belə hüquq olar? Mənə və ailəmə qarşı qərəz o həddədir ki, 05.07.2017 tarixli, 2-1(81)-1889/17 saylı Bakı İnzibati Məhkəməsinin qərarını 6 ildən sonra - 01.04.2023-dən borclu Filial ləğv edib(?), məhkəmə qərarı ilə pensiyama əlavə olunan 110 manatı kəsib, 1 ildir bərpa etmir. Şikayətlərim DSMF-ə göndərilir, oradan Konstitusiyanın qüvvədə olmadığını, pensiyamı azaldan 2021-ci il tarixli qanunun 15 il qabağa şamil olunduğu, qanunun məhkəmə qərarını ləğv etdiyi (?) şablon cavablarla bildirilir.

3.Həyat yoldaşımın pensiyasını da mənə görə azaldıblar, yanvar artımını hələ də vermirlər. 4. Keçən ildən hamıya qanpulu-sığorta ödənib, bircə məndən başqa. 4.30 ildir Səhiyyə Nazirliyi xaricdə müalicəmi məsləhət bilir, lakin ƏƏSMN bu 30 ildə bircə dəfə də olsun təşkil etməyib. Hətta ağır astmadan Naxçıvana yol xərci, NK-dan göstəriş verilsə də, ödənməyib. Bakı İnzibati M-si, Ombudsman, PA, MM, Maliyyə N-yi, Hesablama Palatası, 161,961 qaynar xətləri-prokurorluq, hamı rüşvətini alıb susur. BƏYƏM ÖLKƏDƏ KONSTİTUSİYA QÜVVƏDƏ DEYİL? Bakı İM-in özbaşınalığına, korrupsiya faktına kim son qoyacaq?

DSMF-in Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının direktor müavini Elnur Qurbanov 22.02.2023-cü il tarixli məktubla pensiyamın 1112,44 manat olduğunu, 1 il sonra 21.02.2024-cü il tarixli məktubla 1082,70 manat olduğunu bildirib. 11,3 faiz ndeksləşdirmədən sonra pensiyam 155 manat artmaq əvəzinə, 30 manat azalıb. Belədə deyiblər, yumurtlamadı, yumurtlamadı, falı da yedi? XŞTMF bu “falyemə”ni məhkəmə qərarının əsaslandığı qanun maddəsinin 01.01.2021-ci ildən ləğv olunması ilə bağlayır. Sitat: “ Qanuna edilmiş müvafiq dəyişikliyə uyğun 01.01.2021-ci ildən 19.1.7.1 maddəsi ləğv edilib. Nəticədə qeyd olunan maddə əsasında ödənilən 110 manat əlavənin bütün şəxslərə ödənilməsi dayandırılıb. YƏNİ FƏRQ ETMİR, SÖZÜGEDƏN ƏLAVƏ ŞƏXSİN MÜRACİƏTİ ƏSASINDA MƏRKƏZİ FİLİAL TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏRƏK ÖDƏNİLDİYİ HALDA BELƏ VƏ YA MƏRKƏZİ FİLİAL TƏRƏFİNDƏN QANUNVERİCİLİYƏ UYĞUN HESAB EDİLMƏDİYİNƏ GÖRƏ MƏHKƏMƏ QƏRARI ƏSASINDA MÜƏYYƏN EDİLƏRƏK ÖDƏNİLSƏ DƏ, HƏMİN MADDƏ LƏĞV OLUNDUĞUNDAN SÖZÜGEDƏN ƏLAVƏNİN ÖDƏNİŞİ DAYANDIRILIB”. Özbaşınalığa baxın, sıradan məmur Konstitusiyanı, qanunu cibindən aşağıda tutur, 7 il qabaq qanuni qüvvəyə minmiş məhkəmə qərarını da, Konstitusiyanı da “ləğv edir”! Konstitusiyanın 149-cu maddəsinin VII hissəsinin qanunun geriyə qüvvəsini qadağan etməsi bir yana, Konstitusiya Məhkəməsi Plenumunun Cavid İsmayılzadənin şikayəti üzrə 13 fevral 2007 tarixli Qərarında qəti doğrulanıb: “QANUNİ QÜVVƏYƏ MİNMİŞ MƏHKƏMƏ QƏRARININ MƏCBURİLİYİ ONLARIN BÜTÜN DÖVLƏT ORQANLARI VƏ VƏZİFƏLİ ŞƏXSLƏR TƏRƏFİNDƏN QANUNLA MÜƏYYƏN EDİLMİŞ QAYDADA HEÇ BİR HALDAN ASILI OLMAYARAQ İCRA EDİLMƏSİNİ NƏZƏRDƏ TUTMAQLA , eyni zamanda həmin aktların QANUNSUZ və ƏSASSIZ OLMALARI EHTİMALLARINA SÖYKƏNMƏKLƏ İCRA İLƏ BAĞLI MƏHDUDİYYƏTLƏRİN YARADILMASINI və MANEƏLƏRİN TÖRƏDİLMƏSİNİ QADAĞAN EDİR”. Belə bəlli olur ki, ƏƏSMN və tabeliyindəki qurumlar QANUNDAN, KONSTİTUSİYADAN KƏNAR QURUMLARDIR. Elə DSMF-də Konstitusiyaya zidd yaradılan MƏHKƏMƏ FİLİALININ- 39 SAYLI VƏKİL BÜROSUNUN FƏALİYYƏT GÖSTƏRMƏSİ bu qanundan, Konstitusiyadan kənarlığı bir daha ortaya qoyur.

Sizdən sosial təminat, məhkəmə təminatı, hüquqi yardım almaq hüququmuza qoyulan qadağanın aradan qaldırılmasını, qərəzli ayrı-seçkiliyə son qoyulmasını, Bakı İnzibati Məhkəməsinin İPM-in 116-120 maddələrinə, Ali Məhkəmə Plenumunun 19.11.2021 tarixli Qərarına uyğun borcu icra etdirməsini, cinayət işi qaldırılmasını təmin etməyinizi diləyirəm”.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.***

# Göyçay sakini torpağının zəbt olunduğunu deyir

Göyçay rayonu, Qarabaqqal kənd sakini Zəkəriyev İlqar Çovdar oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə aidiyyəti qurumlara müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:

## İlqar Zəkəriyev iddia edir ki, rəsmi qurumlar saxta rəy verdiyi üçün məhkəmə yanlış qərar çıxarıb



"Mənim şikayətim Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi şəxsi 16 saylı Ucar Ərazi İdarəsinin rəisi Fikrət Nuşiyev, onların mütəxəssisləri Məmmədov Tural və Aqşin Həmidovdandır.

Mənə aid olan 62 sot xüsusi torpaq sahəsini 2012-ci ildə şəhid ailəsi Sadıqov Surxay Xumar oğlundan almışam. Sol tərəfimdəki elektron ucotu ilə təsdiq olunmuş 75 sot sahə isə 1995-ci il ildə torpaq islahatları keçirilən vaxt qonşum Musayeva Kifayət Şahlar qızına verilib. Arada görünən xətt var ki, onu qanunsuz olaraq açıblar.

Qonşum Musayeva Kifayət Şahlar qızı 2018-də məhkəmə iddiası qaldırıb ki, guya, mən onun 20 sot torpağını zəbt etmişəm.

Şəki Apellyasiya Məhkəməsi Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi şəxsin 16 saylı Ucar Ərazi idarəsinə tapşırıq verib ki, bu torpaq sahəsi ölcülsün və zəbt olunma halının müşahidə olunub-olunmamasına dair rəy təqdim edilsin. Şəki Apellyasiya Məhkəməsinin göstərişinə əsasən, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi şəxsin 16 saylı Ucar Ərazi idarəsinin mütəxəssisləri Tural Məmmədov və Aqşın Həmidov torpaq sahəsinə gəlib, Göycay rayon Qarabaqqal Bələdiyyəsi sədrinin və icra nümayəndəsinin iştirakı ilə torpaq sahəsinin ölcüsünü aparıblar. Bundan sonra mənə bildirdilər ki, 60 sot torpaq sahəsi Musayev Kifayət Şahlar qızının sərhəd xəttindən və burada heç bir zəbt halı yoxdur.

Mən sənədlərimi, alqı-satqı müqavilələrimi, çıxarışlarımı təqdim etdim. Bildirdim ki, bu torpağa aid mənim çıxarışlarım və sənədlərim var. Onlar da mənə bildirdilər ki, heç bir zəbt olunma halı yoxdur. Yerində akt tərtib etdilər, mən də imzaladım, çıxıb getdilər.

Şəki Apellyasiya Məhkəməsində iştirak edəndə hakim Günay Cavadova məni rəylə tanış etdi. Rəyi oxuyanda məlum oldu ki, guya, mən Musayev Kifayət Şahlar qızının 20 sot torpaq sahəsini zəbt etmişəm, 60 sot torpağın içindən 20 sot ərazi ona məxsusdur. Bu zaman mənə aydın oldu ki, sonradan başqa rəy vermişlər.

Qeyd edim ki, Musayeva Kifayət Şahlar qızının Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi şəxsin 16 saylı Ucar Ərazi İdarəsinin mütəxəssisi Tural Məmmədovla yaxın qohumluq əlaqələri vardır. Aldığım məlumata görə, Tural Məmmədov Musayev Kifayət Şahlar qızından bu işin müqavilində rüşvət alaraq, Aqşin Həmidovla əlbir şəkildə qanunsuz rəy verib, Şəki Apellyasiya Məhkəməsini aldadıblar. Nəticədə Şəki Apellyasıya Məhkəməsi onların rəyinə əsaslanaraq, ədalətsiz qərarı çıxarmışdır.

Hazırda əlimdə sənədlərim var.




Buna baxmayaraq, qanunsuz rəyə əsasən torpağımın sərhədi açılıb, ortadan şum çəkilib, mənim hüquqlarım tapdanıb. Nəzərinizə çatdırım ki, torpağın arakəsməsi açıldıqdan sonra Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi şəxsin 16 saylı Ucar Ərazi İdarəsinin rəisi Fikrət Nuşiyevin torpağı mənə satan şəhid ailəsinin oğlu ilə birlikdə qəbulunda oldum. Ona bildirdim ki, cənab rəis, sizin mütəxəssislər qanunsuz rəy veriblər, bu rəyə əsasən də mənim hüquqlarım pozulub. O, mənə dedi ki, sən qapının arxasında gözlə. Sonra Aqşın Həmidovu çağırdı. Bir neçə dəqiqə söhbət etdikdən sonra mənə bildirdi ki, Aqşin Həmidov düzgün rəy verib, sən hara ürəyin istəyir gedib şikayət edə bilərsən. Mən ona narazılığımı bildirdim, yenidən torpağın ölçülməsini xahiş etdim. Dedi ki, bu, mümkün deyil. Aşağıdan polis mühafizəsini və özünün köməkçisi olan xanımı çağırıb göstəriş verdi ki, bir də bu vətəndaş mənim qəbuluma gəlsə, icəri buraxmayın, yoxsa sizi işdən çıxaracam.

Mən ölkə başçımızdan, hüquq mühafizə orqanlarından xahiş edirəm ki, verilmiş qeyri-qanuni rəy ləvğ olunsun, Aqşin Həmidov və Tural Məmmədov haqqında qanuni tədbir görülsün, pozulmuş hüquqlarım bərpa olsun".

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# Gəncə sakini DYP əməkdaşı tərəfindən döyüldüyün iddia edir

Gəncə şəhəri, Sevinc qəsəbəsi 31-ci küçənin sakini Həsənov Təbriz Fəxrəddin oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Baş Dövlət Yol Polisi İdarəsinin rəhbəri Ramiz Zeynalova müraciət edir:

## "Ətrafdakı polis əməkdaşlarına dedi ki, nəyə baxırsınız, gəlin tutun qoyun içəri"









**"Cənab Ramiz Zeynalov!**

Mən, Həsənov Təbriz Fəxrəddin oğlu, ildirirəm ki, 24.02.2024-cü il tarixdə etibarnamə əsasında idarə etdiyim 10-KE-544 dövlət qeydiyyat nişanlı "Qaz 31105" markalı minik avtomobili ilə Samux rayonundan Gəncə şəhərinə qayıdarkən, saat 19:30 radələrində Samux rayon Polis Şöbəsinin yanında Samux RPŞ-nin DYPB-nin YPX-nin inspektoru, polis serjantı Rüstəmli Çingiz Kərim oğlu mənim avtomobilimi saxladı və avtomobilə əlavə avadanlıq quraşdırıldığını bildirdi. Avtomobilimə əlavə işıqlar qurraşdırılmadığını, bu markalı bütün avtomobillərdə həmin işıqların olduğunu dedim. Lakin polis serjantı Rüstəmli Çingiz Kərim oğlu mənimlə razılaşmayaraq, avtomobilin Samux RPŞ-nin duracağına getməli olduğunu dedi və avtomobili idarə edərək Samux RPŞ-na apardım.

Daha sonra dayım Mehman Qasımovla əlaqə saxlayaraq, həmin işıqların qadağan olub-olunmamasını soruşdum və o, qadağan olunmadığını bildirdi. Bu vaxt telefonu polis serjantı Rüstəmli Çingiz Kərim oğluna uzadaraq dayımla danışmasını istədim. Lakin Çingiz telefonu yerə ataraq danışmaqdan imtina etdi və avtomobilin açarını zorla əlimdən aldı. Qeyd edim ki, həmin vaxt Samux RPŞ-nin DYPB-nin YPX-nin inspektoru, polis serjantı Elnur Əliyev də bizim yanımızda idi. Çingiz Rüstəmli avtomobili Samux RPŞ nin həyətinə salan zaman Samux RPŞ-nin DYPB-nin YPX-nin inspektoru, polis serjantı Abbasov Zaur Rəhim oğlu mənə yaxınlaşaraq "niyə polisə müqavimət göstərirsən" deyib baş və göz nahiyəmə yumruqla zərbə vurdu. Zərbənin təsirindən yerə yıxıldım. Yerdə uzanıqlı vəziyyətdə olanda Zaur ayaqqabısının dabanı ilə əlimin üstünə çıxdı, məni ayağa qalxmağa qoymadı və digər polis əməkdaşlarına "nəyə baxırsınız, gəlin tutun qoyun içəri" sözlərini dedi.

Polis əməkdaşları məni şöbənin içərisinə apardılar və gözümün altı göyərdiyi üçün iki gün məni Samux rayon polis şöbəsinin müvəqqəti saxlama kamerasında saxladıqdan sonra, barəmdə Azərbaycan Respublikası İXM-nin 535.1-ci maddəsi ilə protokol tərtib edib məhkəməyə göndərdilər. Məhkəmədə hadisə yerində olmayan polis əməkdaşı üzümə duraraq, guya polisə müqavimət göstərdiyimi bildirdi. Beləliklə, məhkəmə qərarı ilə 150 manat məbləğində cərimə olundum.

Məhkəmədə mənə bildirdilər ki, döyülməyimlə bağlı məsələnin araşdırılması üçün Samux rayon Prokurorluğuna məktub ünvanlayacaqlar.

Məhkəmədən sonra maşını götürmək üçün cərimə meydançasına getdim və işıqların sökülmədiyini gördüm. Əgər həmin cərimə İXM-nin tələblərinə uyğun tərtib edilmişdirsə, həmin işıqlar söküldükdən sonra avtomobil mənə təhvil verilməli idi. Qeyd edirəm ki, 24.02.2024-cü il tarixdə saat 19:20-da Samux RPŞ- nin DYPB-nin YPX-nin inspektoru, polis serjantı Abbasov Zaur Rəhim oğlu məni döymüşdür və polis şöbəsinin müvəqqəti saxlama yerində olduğum müddət ərzində aldığım xəsarət və ağrılarla bağlı həkim müayinəsindən keçirilməmişəm. Yalnız 26.02.2024-ci il tarixdə məhkəmədən sonra həkimə müraciət etmişəm və Gəncə şəhərində yerləşən 3 nömrəli xəstəxanadan mənə xəsarətlərimlə bağlı arayış təqdim edilmişdir".

**Cənab Ramiz Zeynalov!**

Özüm müharibə iştirakçısı olmuşam, əmim Həsənov Natiq Nəsrəddin oğlu I Qarabağ döyüşlərində şəhid olub. 2 azyaşlı övladım var.

Sizdən xahiş edirəm ki, 24.02.2024-cü il tarixdə saat 19:40 radələrində mənə yumruqla zərbə vuran Samux rayon Yol Polisinin əməkdaşı Abbasov Zaur Rahim oğlunu məsuliyyətə cəlb edəsiniz. Dediklərimin təsdiqi üçün Şöbənin kamerasının görüntülərini açdırmaq yetərli olacaq".

Qeyd edək ki, Həsənov Təbriz Fəxrəddin oğlu məsələ ilə bağlı Samux Rayon Prokurorluğunda da izahat verib.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

Cəmiyyətimiz üçün önəmli, əhəmiyyəti olan bir sıra sahələrdəki fəlakətli vəziyyətlərin səbəblərini soraqlayaraq, bu vəziyyətdən israrla çıxış yollarını arayan İ.Sabirqızının bu fədakar fəaliyyətini ancaq təqdir edib, alqışlamaq olar.

# Problemlərin kökü harda gizlənir?

*(Əvvəli ötən saylarımızda)*

Əsabəli Mustafayev də bir neçə məsələdə məhz bu günə mövcud olan hüquqi sistemin eybəcərlikləri barədə ziddiyyətli fikir irəli sürür. O, bir tərəfdən zərəri ödəmiş adamın (dələduzun) azad ola bilməsini, digər tərəfdən isə, zərəri ödəmiş adamın vaxtından əvvəl çıxdığı halda, onun yenidən cinayət törədə bilməsi ehtimalı əsasında cəzasını tam çəkməli olduğu barədə hakimin şəxsi düşüncəsi və iradəsi ilə qərar qəbul etməsini də nəinki məqbul, hətta yaxşı hal sayır.

Əslində isə vurulan zərərin ödənilib-ödənilməməsi üçün cəza növü, müddəti qanunda zərərin miqdar qrupuna görə ayrıca göstərilməlidir. Miqdar qrupunun son həddi üçün nəzərdə tutulan məbləğ ödənilməsi faizinə uyğun olaraq cəza müddətindən çıxılmalıdır. Dələduzluq əməlinin xarakteri, məzmun və mahiyyətinə görə də müttəhimin cəza növü və müddəti ayrı-ayrı qruplar üzrə təsnif edilməlidir. Müttəhimin hökmən və tam çəkməli olduğu müddət və növ, məhz cəzanın bu hissəsi olmalı, zərərin ödənilmədiyi hissənin cəzası ona əlavə edilməlidir. Belə olan halda hakimin subyektiv, ədalətsiz qərar qəbul etmək imkanı son dərəcə minimallaşdırılmış olur.

Yuxarıda qeyd olunan cinayəti törətmiş məmurlar dövlət piramidasının 2-ci pilləsində qərarlaşmış kontingent qrupuna aid olub, ağır və dəyəri yüz milyonlarla manat ölçülən dələduzluq, quldurluq əməlləri törədən böyük cinayətkarlar kateqoriyasına aiddir. Bizim ölkədə törədilmiş bu və bundan da daha ağır, genişmiqyaslı cinayətlərin təşkilatçıları olmuş nazirlərin cinayət məsuliyyətinə cəlb edilməyib, bəzən istefaya göndərilməsi, çox vaxt isə hətta vəzifəsindən kənarlaşdırılmayaraq, istintaq və məhkəmə prosesindən kənarda saxlanılmasını da nəzərə almasaq belə, bu çapdan olan məsələlər haqqında ölkə rəhbərliyinin xəbəri olmadan hakimlər tərəfindən heç bir hökm və ya qərar qəbul edilə bilməz. Ə.Mustafayev isə, "Böyük dələduzluğun cəzasızlığının qabağını almaq üçün məhkəmə praktikası dəyişilməlidir", fikrini irəli sürür. Lakin yenə də təcrübəli hüquqşünasın ideyasının məzmununda mücərrədlik həllediçi yer tutur. Yəni o, məhkəmə praktikasının hansı məzmun və formada dəyişilməli olduğu sualını cavabsız qoyur.



Düzdür, müsahibəsinin əvvəlki hissəsində Ə.Mustafayev qeyd edir: "Belə deyək, məhkəmələrin müstəqilliyi möhkəmlənməlidir. Baxın, deyirik ha, vaxtından əvvəl vəzifəli şəxslər azadlığa çıxırlar, bilirik ki, bu tapşırıqla olan məsələlərdir. Yəni, mən 99 faiz əminəm ki, bu məhkəmələrin öz təşəbbüsü ilə olmur. Bu icra hakimiyyətlərinin, hansısa iri məmurların tapşırıqları ilə olur".

Birincisi, mövcud konstitusiyanın, onun məzmun və mahiyyətindən irəli gələn qanunvericiliyin fəaliyyəti şəraitində məhkəmələrin müstəqilliyini nəinki təmin etmək, hətta onu möhkəmləndirmək, ümumiyyətlə, mümkündürmü? Bu məsələlərdə Ə.Mustafayevin öz fikirlərini Sov.İKP qurultayının tezisləri məzmununda "dəyişməlidir", "möhkəmlənməlidir" kimi ümumi, mücərrəd formada ifadə etməsi istər-istəməz onun ölkə konstitusiyasının məzmununa bələd olmaması, yaxud şüurlu olaraq öz fikirlərini sona qədər deməyib, yarımçıq bildirdiyini düşünməyə sövq edir. Belə ki, mən onun kimi savadlı və təcrübəli hüquqşünasın ölkə konstitusiyasının bütün maddə və bəndələrini əzbərdən bildiyinə şübhə edə bilmirəm. Görünür ki, onun öz fikirlərini sonadək açıqlamamasının mənə məlum olmayan başqa səbəbləri var.

Onu da qeyd edim ki, ölkədə ən böyük və geniş miqyaslı iqtisadi, kriminal və s. cinayətlərin sifarişçiləri, təşkilatçıları dövlət piramidasının ən yüksək pillələrində qərarlaşan məmur kontingenti arasındadır. Dövlət piramidasının aşağı pillələrində duran "yüzbaşı", "onbaşı"-lar isə bu cinayətlərin aşağı üfüqi qatlarında reallaşdırılan, ilk baxışda kiçik hallar kimi görünüb, əslində isə, ümumi həcmi ölkə miqyası ilə ölçülən müxtəlif cinayətlərin nisbətən kiçik çaplı təşkilatçıları və icraçılarıdır. Sadə vətəndaşların törətdikləri say etibarilə çox, lakin həcm etibarilə kiçik cinayətlərin 95 faizi məhz dövlət piramidasındakı məmurların cinayətləri sayəsində sadə vətəndaş üçün yaradılmış çıxılmaz vəziyyətin onları sövq etdiyi cinayətlərdir.

Təcrübəli hüquqşünas məhz buna görə, böyük dələduzluğun cəzasızlığının qabağının alınmasını ön plana çəkir. O, kiçik dələduzluğun, cinayətlərin baş verməsinin əsas səbəbnin böyük dələduzluq, cinayət törədənlərin cəzasızlığından törənməsini birbaşa söyləməsə də, bunu diplomatik formada ifadə edir. "Mən qanundakı boşluqdan demərəm, amma qanunun tətbiqində çox ciddi problem var. Boşluqları hətta bu halda da saxlasaq, qanun bir az ciddidir. Amma həmin qanunun tətbiqində



subyektiv, korporativ maraqlar, korrupsiya maraqları həddən artıq çox güclüdür".

"Bəli, aşağıdan yuxarıya qədər nə qədər pul yığılıbsa, demək o qədər də insan işə cəlb olunub. Ancaq tutulanda görürsən ki, biri tutulub, ona deyirplər ki, get bir az yat, biz onsuz da səni çıxardacağıq. O da gedib yatır, bir azdan sonra çıxır, keyf edir".

Ə.Mustafayev qanundakı boşluqların ikinci məsələ olduğu, əsas problemin qanunların icra mexanizmində olduğunu dəqiq müşahidə edib, dilə gətirir. Yəni hələ Milli Məclisdə qanunlar qəbul edilərkən, onun reallaşma mexanizminin müəyyən edilməsi Nazirlər Kabinəsi və s. icra məmurlarının, bir hissəsini də qanunvericilərin özü kimi muzdlu məmurlar olan hakimlərin öhdəsinə buraxılmaqla, əslində, qanunların tətbiqinin taleyinin məmur iradəsinə tabe edildiyini bildirir. Qanunların tətbiqində subyektiv, korporativ, korrupsiya maraqlarının həddən artıq güclü olması da cəmiyyət üzvlərinin iqtisadi-ictimai hüquqları üzərində hakimiyyəti, yəni sahiblik hüququnu konstitusiyanın özündə, daha dəqiq desək konstitusiyanın 7-ci maddəsinin III bəndində, - "icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur", yazılaraq qanunvericilik və məhkəmə proseslərinin aparılması, hətta qanunverici və məhkəmə orqanları başçılarının vəzifəyə təyin və vəzifədən azad edilməsi, qanunların tətbiq edilməsi də daxil olmaqla prezidentin hüquq və səlahiyyətinə aid edilir. Bu da o deməkdir ki, ALİLİK QANUNA DEYİL, prezidentə verilir.

Belə olan halda qanunun aliliyinin kütləvi şəkildə, birmənalı olaraq bütün proses və hallarda təmin edilməsi mümkün deyil. Yəni ölkədə təkcə məhkəmə prosesləri deyil, irili-xırdalı yüz mindən çox məmurun hər gün, hər saat ümumilikdə milyonlarla hesablanan qərarlarına nəinki bir, hətta yüz prezident belə nəzarət edə, bu qərarların qanuna uyğun olub-olmadığını müəyyən edə bilməz. Bu səbəbdən də reallıqda prezidentin hakimiyyət (sahiblik, alilik) hüququ dövlət piramidasının pillələrində duran məmurlar arasında, hər birinin funksiyalarına uyğun, piramidanın aşağı son pilləsindəki məmurlara qədər, obyektiv olaraq bölüşdürülür. Bu bölgü olmadan mövcud konstitusiya və reallaşma, yəni icra mexanizmi olmayan qanunlar toplusu şəraitində heç bir məmur öz vəzifə funksiyalarını yerinə yetirə bilməz. Məhz bu səbəbdən, başqa proseslər də daxil olmaqla məhkəmə proseslərində hökm və qərarların qəbul edilməsində hakimlərin subyektiv, korporativ, korrupsiya maraqlarına uyğun qərar qəbul edə bilməsinin, etməsinin əsas səbəbi də budur. Bütün məmur qərarlarının qəbul edilməsində subyektivliyin, korporativ, korrupsiya maraqlarının GÜCÜ də elə hakimiyyətin (sahiblik hüququnun, aliliyin) qanunda deyil, məmurda olmasındadır.

*(Sonu növbəti sayımızda)*

**Şapur QASİMİ**

# Müqavilənin bağlanmış sayılması kontekstində oferta və akseptin hüquqi təhlili

Müqavilə hüquqauyğun hərəkət olmaqla iki və ya daha çox şəxs arasında mülki hüquq münasibətlərin yaradan, dəyişdirən və xitam edən hüquqi faktdır. Müqavilənin bağlanması üçün onda iştirak edən tərəflərin hüquqi nəticə yaradan iradələri qarşılıqlı şəkildə ifadə olunmalıdır. Bu iradə ifadələri bir tərəfin müqavilə bağlanmasına dair təklifi, digər tərəfin isə bu təklifi qəbul etməsi şəklində təzahür edir. İradə ifadəsi şəxsin özünün iradəsi və bu iradənin hər hansı bir formada xaricə ifadəsi ünsürlərindən ibarətdir. Lakin bir müqavilənin bağlanmış sayılması üçün bəzən yalnızca qarşılıqlı olan iradə ifadələri kifayət etmir. Bəzi hallarda buna tamamlayıcı ünsürlər də əlavə edilir. Məsələn, daşınmaz əmlakla bağlı müqavilə notarial qaydada bağlanması və reyestdə qeydə alınma tələbi əsasdır.




Həmçinin, müqavilənin bağlanmış sayılması üçün təklif və qəbula (oferta və akspet) dair xüsusi tələblər, müqavilənin bağlanmış sayılması üçün onun formasından asılı olaraq bağlanma anları fərqlənmişdir. Beləliklə, bir müqavilənin mövcudluğundan bəhs etmək üçün ən az iki tərəfin qarşılıqlı və bir-birinə uyğun iradə ifadələri mövcud olmalı, bu iradə ifadələri oferta və aksept formasında qanunvericinin müəyyən etdiyi tələblərinə uyğun olmalı və nəhayət, bu iradə ifadələri müqavilənin bağlanma anı kimi onun formasından asılı olaraq qanunvericiliyə uyğun formada ifadə edilməlidir (əks etdirilməlidir). Yəni baxmayaraq ki, qarşılıqlı iradə ifadələri mövcud olmaqla, oferta və akseptin tələblərinə əməl edilmişdir, müqavilənin bağlanma anı onun ifadə edilmə tələblərinə əməl etdikdə mövcud olur. Əks halda müqavilə bağlanmış sayıla bilməz.

## Oferta

Oferta müəyyən qarşı tərəfə yönləndirilən və qarşı tərəfin qəbul etdiyi təqdirdə təklif edən şəxsin icraya hazır olduğunu ifadə edildiyi, müqavilənin mühüm şərtləri (essential terms) əks olunduğu müqavilənin bağlanmasına dair təklifdir.

Müəyyən qarşı tərəfə göndərilmiş olması;

Aksept olan zaman icraya hazır olmanın ifadə edilməsi;

Mühüm şərtlərin əks olunması.

Müqavilənin bağlanmış sayılıbsayılmamasının araşdırılması üçün ofertanın qeyd olunan tələblərə cavab verməsi zəruridir. İlk növbədə təklif o halda oferta sayılır ki, bu təklif müəyyən olan şəxs(lər)ə ünvanlansın (istisna hal-ümumi oferta). Burada müqavilənin digər tərəfinin bu təklifdən xəbərdar olacaq şəkildə ifadə olunması əsas məsələdir. Əks halda qarşı tərəfin qeyri-müəyyən olmasından əlavə, qarşı tərəf məlum olsa belə onun bundan xəbərdar olmaması və məlum olsa belə təklifin onun xəbərdar olmayacağı şəkildə ünvanlanması oferta sayıla bilməz.

Ofertada onun aksept olacağı şəkildə təklif edənin icraya hazır olması açıq şəkildə ifadə olunmalıdır. Bu ünsür bəzən birinci ünsür olmasa belə, ofertanın dəvət kimi deyil, təklif kimi nəzərdən keçirilməsi üçün önəmli ünsür hesab oluna bilir. Belə ki, ofertada qarşı tərəfin qeyri - müəyyən olması onun ofertaya dəvət olmasına gətirib çıxarır. MM-in 408.2-ci maddəsinə görə şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifdə (o cümlədən reklamda) bilavasitə ayrı qayda göstərilməyibsə, bu təklif ofertaya dəvət sayılır. Lakin bütün hallarda bu hal digər ünsürlərin təsiri ilə dəvət kimi yox, təklif kimi də nəzərə alına bilir. Bununla əlaqədar məşhur bir məhkəmə işi mövcuddur. Carlill - Carbolic Smoke Ball (1893) məhkəmə işində ofertanın mövcud olması təsdiq edilmişdir. Burada qarşı tərəf qeyri-müəyyən olmasına baxmayaraq, təklifin konkret olması və icraya hazır olmanın konkret şəkildə ifadəsi müqavilənin mövcud olduğunu təsdiq edirdi.(3) MM-də isə bu məsələ ümumi oferta şəklində 408.7-ci maddəsində əksini tapmışdır: "əgər müqavilənin bütün mühüm şərtlərini əks etdirən təklifdən onu irəli sürmüş şəxsin təklifdə göstərilmiş şərtlər ilə müqaviləni cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünürsə, belə təklif ümumi oferta sayılır".

Digər bir məsələ müqavilənin mühüm şərtləri (essential terms) müqavilədə əks olunmalıdır. Mühüm şərtlər müqavilənin predmetinə dair şərtlər, bu Məcəllədə həmin növ müqavilələr üçün mühüm və ya zəruri müddətdə göstərilən şərtlər, habelə tərəflərdən birinin müraciəti ilə barəsində razılaşma əldə edilməli olan bütün şərtlər mühüm sayılır.

Deməli, ofertada predmet aydın şəkildə bütün zəruri elementləri ilə əks olunmalıdır.

Müqavilə bağlayarkən tərəflər həmin növ müqavilə üçün qanunverici tərəfindən mühüm sayılan şərtlərə əməl etməlidir. Məsələn, lizinq müqaviləsində göstərilməli olan məsələlər qanunvericilikdə konkret göstərilir. Bu mühüm şərtlərdir.

Üçüncü şərtlərdir ki, tərəflər bu şərtlər barəsində razılaşma əldə etməlidir. Bu şərt tərəfin müqavilə bağlamaq niyyətinə əhəmiyyətli şəkildə təsir gücünə malikdir. Məsələn, tərəflər arasında şərtli bağışlama müqaviləsi bağlanılması və hədiyəni bağışlamaq üçün hədiyə verən tərəfindən müəyyən şərtin icrası tələb edilə bilər.

Mühüm şərtlərdən ən diqqət çəkən şərt müqavilə münasibətlərində qiymət hesab edilir. Fransız hüquq sistemində qiymət bəlli olmadan müqavilə bağlanılması qəbul edilməməkdədir. Eyni zamanda hər hansı xidmət, yaxud alqı-satqı müqaviləsini ələ alsaq, tərəflər bu barədə razılaşma əldə etməlidirlər ki, müqavilə bağlansın. Eyni zamanda alqı-satqı müqaviləsi üçün qiymətdən başqa, predmetin təhvil alınma yerinin, o cümlədən predmetin təhvil vermə məqamının müəyyən olması satıcı və alıcının riskini müəyyənləşdirmək baxımdan mühüm şərt hesab olunduğunu deyə bilərik.

Bəzi hallarda müqavilədə icra müddəti müəyyənləşdirilmir. İcra müddəti müəyyən olunmayan müqavilə bağlanmış hesab oluna bilərmi? MM-in 427.2-ci maddəsinə uyğun olaraq əgər öhdəliyin icrası müddəti təyin edilməyibsə və ya şəraitə görə onu təyin etmək mümkün deyildirsə, kreditor öhdəliyin dərhal icrasını tələb edə bilər, borclu isə onu ağlabatan müddətdə icra etməyə borcludur. Yəni müddət müəyyənləşdirilmədən də müqavilə bağlanıla bilər. Bu səbəbdən müqavilənin müddəti onun mühüm şərti hesab olunmur.

Qeyd edək ki, bəzən təklif ilə müraciət edən tərəfə qarşı tərəf yeni təklif irəli sürürsə, bu artıq aksept deyil, oferta hesab edilir ki, bu da müəyyən mənada təklifin rəddi anlamına da gələ bilir. Mahiyyət etibarilə yeni təklif irəli sürülməsi və əvvəlki təklifin dolayı yolla rədd edilməsi qarşı tərəfin yenidən əvvəlki təklifi qəbul edə bilməsi imkanından məhrum edir. Bununla bağlı Hyde-Wrench (1840) keysində 1000 pound məbləğində fermanın satılması təklif edilmiş, Hyde 950 pound ödəməyi təklif etmişdir. Wrench təklifi rədd etdikdə Hyde orijinal təklifi qəbul etməyə çalışdı. Lakin artıq orijinal təklif Hyde'ın qarşı təklifi ilə rədd edilmişdi. Bu səbəbdən orijinal təklif qüvvədən düşdüyündən təzədən qəbul edilməsi mümkün deyildi. Stevenson, Jacques & Co McLean (1880) keysində McLean Stevensona dəmir satmağı təklif etmiş, Stevenson isə daşıma ilə əlaqədar məlumat istəyən bir teleqram göndərmişdi. Bu keysdə bu situasiya Stevenson tərəfindən göndərilən yeni təklif kimi deyil, əlavə məlumat üçün müraciət kimi qiymətləndirilmişdir.

## Ofertanın geri götürülməsi



Təklif edən şəxs tərəfindən ofertanın geri götürülməsi ilə bağlı iki fərqli situasiyanı nəzərdən keçirə bilərik. Birincisi, ofertanın geri götürülməsi barədə bildirişin ofertadan əvvəl, yaxud oferta ilə eyni vaxtda çatması. İkincisi, ofertanın akseptanta çatdıqdan sonra geri çəkilməsi. Birinci hal qanunvericilik tərəfindən tənzimlənərək göstərilir ki, baş verdiyi halda oferta verilməmiş sayılır (MM 408.3). Türk Borclar Qanununun (TBK) 10-cu maddəsində əlavə olaraq, hətta oferta çatdıqdan sonra da onun geri götürülməsi barədə bildiriş akseptant tərəfindən daha əvvəl öyrənilmişdirsə, verilməmiş sayılır.

Burada aydınlaşdırılmalı olan əsas məsələ oferta akseptanta çatdıqdan sonra təklif edən ofertanı istədiyi zaman geri çəkə bilərmi? Oferta və aksept ilə bağlı normaları nəzərdən keçirdikdə qeyd edilən məsələyə birmənalı cavab tapmaq mümkün deyildir. Qanunverici yalnız MM-in 408.3-cü maddəsində halı tənzimləyək sanki ofertanın geri götürülməsini yalnız ofertadan əvvəl və onunla eyni vaxtda olması halında mümkün etmişdir. Həmçinin, MM-in 408.6-cı maddəsində ofertada onun akspeti üçün müddət göstərildikdə, ofertanın özündən başqa hal irəli gəlmirsə, həmin müddət ərzində də geri götürülə bilməz.Bu ifadədən isə dolayı yolla o nəticə çıxır ki, həmin müddət keçdikdə geri götürülməsi mümkün olur. Lakin bu demək deyildir ki, müddət göstərilməyən oferta göndərildikdən sonra akseptant onu istədiyi zaman qəbul edə bilər və təklif edən daim birmənalı olaraq bu təklifə bağlı olmalıdır. Təsəvvür edək ki, B-ə yönləndirilən təklif mövcuddur, B istədiyi zaman bu təklifi aksept edə bilər və A isə bu təklifə daim bağlıdır. Bu müəyyən dərəcədə A-nın da mənafeyini və tərəflər arasında bərabərlik prinsipini də pozar.

MM-in 409.8-ci maddəsinə əsasən əgər yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməyibsə, müqavilə bu şərtlə bağlanmış sayılır ki, oferta göndərmiş şəxs aksepti bu Məcəllədə müəyyənləşdirilmiş müddət qurtarana qədər, belə müddət müəyyənləşdirilmədikdə isə bunun üçün zəruri olan müddət ərzində almış olsun.-Belə aydın olur ki, müddət müəyyənləşdirilməyən ofertanı akseptant hər zaman deyil, yalnız MM-də müəyyənləşdirilən müddət və ya zəruri müddətdə qəbul etsə, müqavilə bağlanılmış sayılacaq. Əks halda akseptin qəbulu gecikdiyindən yeni oferta hesab ediləcək və müqavilə bağlanmış sayılmayacaqdır. (MM-in 410.1) Dolayı yolla burada da oferta həmin müddət keçdikdən sonra geri çəkilə bilər kimi nəticəyə də gəlmək mümkündür. Çünki təklif edənin ofertası ilə bağlılığı üçün əsas aradan qalmış olur.

Bununla bağlı olaraq Anqlo-sakson hüquq sistemində göstərilir ki, oferta aksept edilmədən istənilən zaman geri götürülə bilər.

Birləşmiş Millətlər Təşkilatının malların beynəlxalq alğı-satqısına dair müqavilələr haqqında Konvensiyanın (CISG) 16-cı maddəsinə əsasən isə təklif edən şəxs akseptantın təklifi qəbulunu poçta verməzdən əvvəl təklifi geri götürə bilər. Bu birbaşa olaraq "poçt qutusu" qaydasının birbaşa olaraq təzahürü kimi meydana çıxmaqdadır. Həmin qaydaya görə aksept akseptantdan çıxdığı, poçta verildiyi andan verilmiş hesab olunur. Bizim qanunvericiliyə əsasən isə müqavilə bağlanmış sayılması üçün aksept oferentə çatmalıdır.

Beləliklə, ofertanın geri götürülməsinə dair aşağıdakı məsələlər əsasdır:

*(Ardı var)*

**Aysu NƏBİZADƏ**
**Hüquqşünas**

Suala müsbət cavabı Sovet dönəmində aldığımı xatırlayıram. Sistem uşaqların və gənclərin beyninə işləmişdi ki, İdman sağlamlıqdır, insanı gumrahlaşdırır, cəsurlaşdırır, iradəli edir və sair. Bu, həqiqətdir! İdman hərəkətdir, orqanizmi xəstəliklərdən qoruyur, ürəyin ritmini normallaşdırır. Bunu klassik pedaqoqlardan J.J.Russo, A.A.Komenski, Con Lokk da etiraf etmişlər. Hələ eramızdan əvvəl Aristotel "Poetika" əsərində yazmışdır ki, gözəllik, sağlamlıq istər müəyyən bir canlıda və ya şeydə məlum hisslərdən ibarətdirsə onda gərək bu hisslər nəinki müəyyən nizamda, həmçinin münasib həcmdə olsun.



# İdman gözəllikdirmi?..



**Allahverdi Eminov**

Gözəllik nizamdadır. Mən ali məktəblərdə çalışdığım: Otuz il dərs dediyim illərdə də bu mövqeyimdə qalmışam. Lakin vaxt yetişdi "idman - gözəllikdir" anlayışı əvvəlki qüvvəsini itirdi, əsas günah Sovet qanunlarına qarşı yaranan biganəlik, saymazlıq və ciddi təsir altına düşməkdir. Baxılan kinofilmlər, translasiya olunan idman yarışları, xarici ölkələrə səfərlər və s. qazanılan müstəqillik idmanda öz mənfi izini əsaslı şəkildə göstərdi, xüsusilə, qadın idmançılara tətbiq olunan növlər geniş vüsət aldı. Deyək ki, qadınlara sərt idman oyunları qadağan edilmişdi, karate, boks, cüdo xüsusilə nəzarətə alınmışdı. Yarışlar kütləviləşməmişdi, tatami üzərinə ayaq açmamışdı, beynəlxalq yarışların gündəliyinə düşməmişdi. XXI əsr öz gəlişi - girişilə bir sıra bəlalar gətirdi, insanların psixologiyasına ciddi həmlələr etdi, "Mədəni davranış" stixiyasını pozdu, qəddarlıq, amansızlıq, hövsələsizlik və s. adiləşdi. İş o yerə dirəndi, övlad valideyni, valideyn isə balasını qətlə yetirdi. Yeniyetmə - gənclər sərbəstlik həvəsilə böyüklərə qarşı kobudluğa, ötkəmliyə, laqeydliyə yol verdilər. Sinifdə şagirdlər müəlliminin "uşaqlar, sakit olun" xahişinə əhəmiyyət vermədilər, icazəsiz əyləşdiyi partadan durub başqa skamyada oturdular. Hövsələsiz şagirdlər yerindən atılıb lövhəyə tərəf getdilər və ilaxır. Bu qeyri normal davranışlar bu gün məktəblərimizdə adiləşmişdir. İdman müəllimləri öz gücünü şagirdinə tətbiq etməkdən belə, daşınmırlar. Son illər bu hal məktəblərimizdə tez-tez baş vermişdir. Mətləbə qayıdıram: İdmanın sərt növləri nəinki cavan kişilərdə, hətta qızlarda (qadınlarda) adi vərdişə çevrilmişdir. Rəsmi yarışların proqramına karate, cüdo, güləş, boks, futbol idman oyunları daxil edilmişdir. Bəlkə də özümü qınaq hədəfinə verirəm: "Azəri - türk qızlarının belə "amansız" oyunlara kütləvi şəkildə qoşulmasını qeyri - məqbul sayıram. Xarici qızların belə sərt oyunlarda iştirakına adi baxmaq mümkündür və tele - ekranlara baxanda yarışan qızların aqibətinə ikrahla yanaşıram. Görünür, belə idman növlərini proqrama daxil edən qurumlar üçün qadın gözəlliyindən zövq almaq yox, tatami üzərində eybəcər səs çıxarmaq, qışqırmaq, rəqibinin üstünə vəhşicəsinə atılmaq zövq verir. Qadının gözəlliyini şərtləndirən əlamətlər çoxdur: onların saçları, dodaqları, sinələri, qolları, ətli əlləri, simmetrik baldırları və s. tarixən kişiləri özünə bağlamışdır, deyərdim "əsir" etmişdir, məhəbbət hissi oyatmışdır. Vaxtilə yazmışdım ki, qadın (qız) dibçəkdə bitmiş çiçək kimidir, onu vaxtaşırı sulamaq lazımdır. Bəli, qız yuxuda da gözəl görünmək istər. Sərt oyunlar qızları gözəllik taxtından - qadınlığından endirir, onun sanki xarakterini dəyişdirir, kişiləşdirir, axı, kişi qadın deyil ki, bər - bəzəkli görünsün, belə "qadınlaşan" kişiləri zərif xanımlar sevmir! Futbol, boks, ağırlıq qaldıran, əzələ nümayiş etdirən və s. idman növlərinin öhdəsindən gələn qızların "fədakarlığı" alqışa layiq deyil, bunlar zərif cinsə xas olmamalıdır. Bunlar qadın məxluquna yaraşmır, estetikadan daha çox sensasiyaya uyмaqdır. Amma bədii gimnastikanı qadına nə qədər yaraşdırırıqsa, bir qədər zərif cinsin ağır idman növlərinə qoşulmasını məqbul saymırıq, məqsədəuyğun hesab etmirik.

> Gözəllik nizamdadır. Mən ali məktəblərdə çalışdığım: Otuz il dərs dediyim illərdə də bu mövqeyimdə qalmışam. Lakin vaxt yetişdi "idman - gözəllikdir" anlayışı əvvəlki qüvvəsini itirdi, əsas günah Sovet qanunlarına qarşı yaranan biganəlik, saymazlıq və ciddi təsir altına düşməkdir. Baxılan kinofilmlər, translasiya olunan idman yarışları, xarici ölkələrə səfərlər və s. qazanılan müstəqillik idmanda öz mənfi izini əsaslı şəkildə göstərdi, xüsusilə, qadın idmançılara tətbiq olunan növlər geniş vüsət aldı...

Budur 18-20 yaşlı qız tatami üzərində görünür, karate (yaxud cüdo yarışıdır) hər iki rəqibi bir-birinə "düşmən" edir, bir-birinə amansız (!) zərbələr endirirlər, hər zərbədə qıza yaraşmayan çığırtılar eşidilir. Deməli, Oyun qızlara xas titrək, xoş, həlim səsi boğmuşdur, ahəngindən çıxarmışdır. Beləcə, idmandan uzaqlaşandan sonra, ana olandan sonra onun qazandığı nə olacaqdır? Üzr istəyirəm: kobudlaşmış qadın səsi! Qadın səsi kişilərdən fərqli olaraq məlahətilə seçilməlidir, dinləyiciyə xoş təsir bağışlamalıdır. Səs fəryad deyil rəqibini lərzəyə salsın...

Budur, iki növcavan qız tatamiyə çıxmışlar, güləşirlər. Birisi həmkarını üstələmişdir, yerə sərmişdir, o isə hey çabalayır, çırpınır, qılçalarını havada oynadır tamaşaçılar qarşısında. Bəs oyuna baxanlar bu qeyri - normal, etikadan kənar hərəkətlərdən zövq alırlar? Bu zövq deyil, cavan, zərif qızın xalça üzərində kobudlaşmış hərəkətidir, o, sürünür, çırpınır qızın - gələcək ananın bədənini haldan hala salması nəyi vəd edir? Bu, ancaq fiziki hərəkətdir, bəs daxilən, ruhən hansı hissləri keçirir? Təsəvvür etmək çətindir...

Budur, 22 qız stadionda görünürlər, futbol oynayırlar, topa zərbələr endirirlər, sanki bu zaman kişiləşirlər. Axı, bu qızlar zərif məxluqlardır, onlar isə fənd işlədir, torpağa sərilir, ayaqları zədələnir, saçları səliqəsini itirir və ilaxır. Məşhur futbolçu Pele "qadın futbolu"-nu eşidərkən çiyinlərini çəkib demişdir: "Qadınlar öz təbiətləri etibarilə zərif və kövrəkdilər, futbol kişilər üçün yaranmışdır". Paradoks o oldu: Pelenin qızı dünyada məşhur futbolçu oldu!

Gözəlliyə xələl gətirmək günahdır, qadın xüsusilə, təbii - fiziki gözəlliyi qoruyub saxlamalıdır, bu gözəllik onun yaradıcılıq zirvəsidir. V.Şekspir əbəs deməmiş ki, gözəllik danışmağa başlayanda bütün natiqlər susur...

Budur, iki zərif qız rinqə çıxmışlar, qəşəng əlləri əlcəkdədir,barmaqlar sanki donmuşdur. Rəqiblər bir-birinə yumruq atırlar, zərbə rəqibin qaşını partladır, gözləri qapanır. Dodaqlarından qan sızır. Düzü, qızların boks döyüşlərinə baxanda ürəyim ağrıyır, xüsusilə, şərqli qızların, müsəlman ailəsində doğulan və tərbiyə alanların belə eybəcər hala düşməsini bağışlaya bilmirəm. Daha Qərblə Şərqin fərqi harada qaldı? Amansız təkbətək döyüşdə gözəlliyi, məlahətliyi, sağlamlığı özündə ehtiva edən üz - çöhrəsi nə vaxt sağalacaqdır? Belə qızlar unudur ki, sabah bir oğlanın sevgisi ola bilər, birisi gün isə Ana, övlad sahibi.

Boks döyüş növüdür, iki tərəfin əlbəyaxa mübarizəsidir, gözəlliyi rinqdə itirmək deyil!

Qızlar (qadınlar) üçün məgər azmı idman növləri vardır: volleybol, gimnastika, basketbol, tennis, əltopu, dama, şahmat və s. bunlar da sağlamlığa zəmanət verir, gözəlliyi qoruyur, qadın vücudunu simmetriyasını - ahəngini saxlayır. Qızlar - gələcək qadınlar - analar şöhrətpərəstliyə, mukafatlara, vəzifələrə aludə olub sərt, deyərdim ki, amansız döyüş ruhlu idman növlərindən uzaq olmalıdır, indiki - mövcud məlahətin qayğısına qalmalıdır, xalçada, rinqdə, meydanda zərifliyini itirməməlidir, elastik bədənini ikrah doğuran vəziyyətlərə gətirməməlidir. Vaxtilə, Şərqdə qızların fiziki tərbiyəsi diqqət mərkəzində olmuşdur: at çapmışlar, şahmat oynamışlar, qılıncla məşq etmişlər və sair oyunlar onları bir növ düşmənlə döyüşə hazırlıq məqsədi daşımışdır, intellektuallığa xidmət göstərmişdir, tamaşaçılar estetik zövq almışlar, daha qızların gözəlliyinə xəyanət edən idman oyunlarına rəvac verməmişlər.

Qadın məxluqu var olan məkanda yalnız gözəllik barədə düşünməliyik, qadını solmağa, məlahətini itirməyə imkan verməməliyik. Onun sağlam çöhrəsi gül ləçəyinə bənzər, onu yarpaqla vursaq, bu, qadını təhqir etmiş olarıq.

**Məşhur Şərq şairi Naseh (1865-1914) bir şeirində yazmışdır:**

***Qadın bir jalədir kim,***
***düşsə gül üstə olur incu,***
***Əgər nacis ələ düşsə olur***
***bir cəfa tək bədbu.***
***Qadın bir tək gülə bənzər -***
***sıxılmaqdan solar gül tək,***
***Zərif əllərdə saxlansa***
***soluxumaz, həm verər xoş bu.***

**Sual cavabımda yanılmamışam ki!?**

Hürriyyət

# Şəhid

SİZİN ÜÇÜN QƏZET

№15 (3306) 23 Aprel / 2024-cü il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Şəhid ailələri diqqət mərkəzində

## Masallıda şəhid ailələri və rayon rəhbərliyinin iştirakı ilə tədbir keçirildi



**44 günlük haqq savaşımızda qanı bahasına düşməni məğlub edib, millətə qələbə sevincini yaşadan şəhidlərimiz əbədi ömür qazanmaqla bizlərə çox əzizdirlər. Onların ailələri isə hər cür ehtiram və məhəbbətə layiqdirlər. Şəhid ailələrin yanında olmaq, onlara mənəvi dəstək durmaq isə xalqımızın böyüklüyündən irəli gəlir.**

Bu günlərdə Masallının Qəriblər kəndində yerləşən "Viləş" otelində Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov rayonun hüquq mühafizə orqanları, idarə, müəssisə və təşkilat rəhbərinin iştirakı ilə şəhid ailələrini qəbul edib.

Görüş-qəbulu rayon rəhbəri ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan igidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməklə açıb və şəhid ailələrini salamlayaraq bildirib ki, ölkəmizdə şəhid ailələri daim dövlətin diqqət və qayğı mərkəzindədir.

Rayon rəhbəri bütün ölkədə olduğu kimi, Masallıda da şəhid ailələrinin daim diqqətdə olduğunu bildirərək, ötən görüşlərdə şəhid ailələrinin qaldırdıqları



məsələlərin həlli ilə bağlı görülən işlər barədə ətraflı məlumat üçün sözü Masallı Rayon İcra Hakimiyyətinin başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qəşəm Hadıyevə verib.

Söhbətə tədbir iştirakçılarını salamlamaqla başlayan Q.Hadıyev rayon rəhbəri ilə ötən görüşlərdə şəhid ailələri tərəfindən qaldırılan müraciətlər, onların həlli istiqamətində görülmüş işlər və hal-hazırda bir çox vacib məsələlərlə bağlı həyata keçirilən layihələr barədə geniş danışıb.

Sonra rayon rəhbəri bir daha şəhid ailələrinin onları narahat edən məsələlərlə bağlı təkliflərini eşitmək istəyib. Şəhid ailələrdən Sədaqət Məmmədova, Hafiz Qurbanov, Turac Quliyev, Arif Əliyev, Əfrail Əzizov və başqaları onları narahat edən bir sıra məsələlərlə bağlı müraciətlərini bildiriblər.

Başçı A.Əhmədov ötün görüşlərdə olduğu kimi səslənən bütün müraciətlərin qeydə alındığını, həssas sinfə aid olan şəhid ailələrini narahat edən hər bir məsələnin həlli istiqamətində mümkün olan bütün addımların atılacağını, onların müraciətləri ilə bağlı dərhal və operativ şəkildə işlərin aparalacağını deyib.

Görüşdə iştirak edən Dövlət Təhlükəsizliyi Xidmətinin Masallı rayon şöbəsinin rəisi Emin Süleymanov isə öz çıxışında Azərbaycan-Ermənistan arasında sülhün bərqərar olmamasında maraqlı olan xarici qüvvələrin yenidən aktivləşdiyini, əsasən bir çox xarici ölkələrdən maliyyələşən və ölkəmizin şanlı qələbəsinə kölgə salmağa çalışanların olduğunu bildirib, xüsusən ölkəmizin ərazi bütövlüyü və qələbəsində payı olan qəhrəman Vətən şəhidlərin, igid oğullarımızın şücaəti ilə azad olunmuş ərazilərimizin süverenliyinin Cənab Prezident ətrafında sıx birləşərək, birlikdə qorumağımızın vacibliyini söyləyib.

Yekun sözündə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov ölkə başçısının şəhid ailələrinə diqqət və qayğısından danışıb, belə görüşlərin mütəmadi təşkilini bildirərək istənilən zaman şəhid ailələrini narahat edən bütün məsələlərlə bağlı daim onları dinləməyə hazır olduğunu deyib.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Örnək ömür sahibi

## Şəhid Pəncəli Teymurov anıldı



**Astarada şəhid Pəncəli Teymurovun adına doğma kəndində inşa edilən evmuzeydə şəhidin anım mərasimi baş tutdu. Anım tədbirində Gənc Qazilər İctimai Birliyi Cənub bölgə filiallarının (Masallı, Cəlilabad və Astara rayonları) sədrləri, idarə heyəti və üzvləri, müharibə veteranları, şəhid anaları, rayon sakinləri və respublikamızın müxtəlif yerlərindən gələn qonaqlar iştirak edirdilər.**

Mərasimi açan ixtisasca tarixçi olan, tanınmış ziyalı Ağarəhim Abdulov Pəncəli Teymurovun şərəfli, qəhrəmanlıqla dolu həyat yolundan, yağı düşmənə qarşı sonsuz nifrətindən, Vətən naminə ölüm-dirim döyüşlərdə göstərdiyi misilsiz şücaətindən danışdı. Həmçinin onu da xüsusilə vurğuladı ki, indi adı xalq tərəfindən qürurla, iftixarla çəkilən Pəncəli Xocalı faciəsi baş verəndə cəmi 11 yaşında olub. O vaxt anası Vahimə xanıma deyib böyüyəndə heç bir günahı olmayan Xocalı şəhidlərin qisasını mən dığalardan alacağam. Bəli, 24 ildən sonra istəyinə çatmaqla adını qəhrəmanlıq tariximinə yazıb. Daha sonra qazilər şəhidin əbədi baş qoyduğu müqəddəs yerə baş çəkdilər, ehtiram əlaməti olaraq məzarı önünə gül dəstələri qoydular. Tədbirdə şagirdlər Pəncəli Teymurova həsr edilmiş şeirlər söylədilər, vətənpərvərlik mövzusunda mahnılar ifa olundu.

Ömrünün 17 ilini Vətənə şərəflə xidmət edən, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı giziri Pəncəli Teymurov 1981-ci ilin 24 mart tarixində Astara rayonunun Əzərüd kəndində dünyaya göz açıb. Şanlı zəfərimizin başlanğıcı olan Aprel döyüşlərin üçüncü günündə son damla qanına qədər vuruşaraq qəhrəmancasına əbədiyyət adlı dünyasına qovuşub. Ölümsüz həyatı ilə milyonların qəlbinə köç edən Astaranın igid oğlu dövlət tərəfindən " İgidliyə görə", "Vətən uğrunda", digər medallara layiq olub.

Bəli, Vətən, torpaq uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalanlar heç zaman ölmürlər. Qərinələr ötdükcə onların xatirəsi daha böyük ehtiramla yad olunur, həyat yolu gələcək nəsillərə örnək göstərilir. Yazdığı tarixlə xalqın qəhrəmanlıq simvoluna dönən Astaranın igid oğlu Pəncəli də belə...

**Zəfər ORUCOĞLU**

# Hünər dastanı yazan qəhraman

## Şəhid baş leytenantı Əliqismət Yaqublu anıldı






**Canına yağı dadanmış Vətənin çətin günündə Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı şəhid Əliqismət Yaqublu hər an silaha sarılıb döyüş meydanına atılmaq üçün məqam gözləyirdi. Nəhayət, 2020-ci ilin sentyabrın 27-də başlanan haqq savaşımızda arzusuna çatdı. Komandir kimi birbaşa səngərə, ermənilərlə savaşa atıldı. Murovdağ yüksəkliyi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçının bir neçə kəndinin azadlığı uğrunda yağıya qan qusdurdu.**

Ürəyi Vətən, torpaq sevdalı igid daha sonra Şuşada əlbəyaxa döyüşlərdə xüsusi şücaət göstərib. Onlarla düşmən hərbçini süngü ilə məhv edib, xeyli yaralı yoldaşını müharibə meydanından çıxarmaqla, onlara ikinci həyat verib.

5 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə, Daşaltı kəndində düşmən gülləsinə tuş gəlib və 28 yaşında şəhidlik zirvəsinə ucalıb. Baş leytenant doğulub boya-başa çatdığı Lerik rayonu, Kələxan kəndində əbədi məkan tapıb.

Ölümsüzlüyə qovuşan, milyonların ürəyində özünə yer edən şəhid Əliqismət Yaqublu dövlət tərəfindən ölümündən sonra "Azərbaycan bayrağı" ordeninə, "Vətən uğrunda", "Şücaətə görə", "Vətən müharibəsi iştirakçısı", Cəbrayılın, Füzulinin, Xocavəndin, Şuşanın, Kəlbəcərin azadlığı uğrunda medallarına layiq görülüb. Bütün Azərbaycan xalqına əziz olan Əliqismətin özündən sonra Vətəninə əmanət qoyduğu Ələsgər və Məhəmməd adlı oğulları var.

Lerik camaatı həmişə öz qəhrəman oğlu ilə qürur duyur. İndi dağlar diyarında onun adını özündə yaşadan yadigarlar çoxdur. Adəti üzrə, yenə də doğma Kələxan kəndində doğum günü xatirəsi anıldı. Rayon rəsmilərin, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri ölməz qəhrəmanın uyuduğu müqəddəs yeri ziyarət edib, ehtiram əlaməti olaraq məzarı önünə gülçiçək dəstələri düzdülər. Həmçinin, rayon məktəblilərin arasında Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı Əliqismət Yaqublunun həyatına və döyüş yoluna həsr olunmuş "Nə? Harada? Nə zaman?" formatlı intellektual yarış keçirildi.

1992-ci ildə Lerikin Kələxan kəndində dünyaya göz açan Əliqismət Mükafat oğlu Yaqublu 2015-ci ildə Ali Hərbi Məktəbi bitirib Qobustanda yerləşən hərbi hissəyə təyinat alıb. Düşməndən qisas almaq məqsədilə elə həmin ildə ərizə yazaraq ön cəbhəyə xidmətə yollanıb. Vətəni göz-bəbəyi kimi qorumaqla, hərbi təlimlərdə fəal iştirak edərək bütün sınaqlardan uğurla keçib.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Şəhid Elçin Kərimbəyli məzarı başında anıldı



Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş Elçin Kərimbəylinin şəhadətə qovuşduğu gün qeyd edilib. Hurriyyet.az xəbər verir ki, 20 aprel 2024-ci il tarixdə Nərimanov Rayon İcra Hakimiyyətinin, Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə şəhid Elçin Kərimbəyli ziyarət edilib, məzarı başına əklil qoyulub.

Tədbirdə rayonun İcra başçısı Elgin Həbibullayev, Bələdiyyə sədri Təmraz Tağıyev, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Bahəddin Hüseynov, Vətən Müharibəsi və Şəhid Ailələri ilə İşin Təşkili şöbəsinin müdiri Tahir İbrahimov, eləcə şəhid Elçin Kərimbəylinin atası Əli Kərimbəyli, qardaşı Samir Kərimbəyli və s. şəxslər iştirak etmişlər. Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş Elçin Kərimbəyli 04 avqust 1992-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1998-2007- ci illərdə Nərimanov rayonunda yerləşən "Tərəqqi" Texnki Humanitar Liseyində, 2007-2010-cu illərdə isə Nərimanov rayonunda yerləşən 3 nömrəli Bakı Peşə Liseyinidə təhsil almışdır.

1 oktyabr 2010-cu il tarixində Nərimanov rayon Hərbi Komissarlığı (indiki Səfərbərlik və Hərbi Xidmətə Çağırış İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. O, hərbi xidmət zamanı bir çox döyüş tapşırıqlarını yerinə yetirmiş, hər zaman əsgər yoldaşları arasında fərqlənmişdir. Xidmətində fərqləndiyinə görə, baş atıcı vəzifəsinə keçirilərək, evlərinə təşəkkür məktubu göndərilmişdir.

20 aprel 2011-ci ildə Elçin Kərimbəyli döyüş postunda növbəti döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Onu da qeyd edək ki, şəhid ailələrinin, qazilərin və hərbi xidmətdən tərxis olunanların hər birinin qayğıları həmişə Nərimanov Rayon İcra Hakimiyyətinin nəzər və diqqətindədir. Belə ki, şəhid ailələrinə İcra Hakimiyyəti tərəfindən mütəmadi baş çəkilir.

**KƏNAN**